www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 dekabr 2017-ci il Çərşənbə № 261 (6875) Qiymәti 60 qәpik

**Xəbər**

## Dəm qazı 4 can aldı: 3-ü azyaşlıdır

yazısı səh.14-də

**Gündəm**

### Müsəlman ölkələri bu gün Qüdslə bağlı qərar verir-gözlər İstanbulda



**Deputat:** "Azərbaycanın toplantıda iştirakı və İslam həmrəyliyi nümayiş etdirməsi ABŞ və İsrail əleyhinə çıxmaq demək deyil"

yazısı səh.8-də

# FAZİL MƏMMƏDOVUN ƏMLAKLARI ƏLİNDƏN ALINMAĞA BAŞLANDI - TƏFƏRRÜAT

Sabiq nazirin vəzifədə olarkən yağmaladığı mal-mülkü geri alınır, ata yurdundakı 100 hektar torpağına əl qoyuldu; həbs təhlükəsi ilə üzləşən icra başçısı Alimpaşa Məmmədovu şikayətçiləri şəxsən qəbul etməyə vadar edən səbəblər...




yazısı səh.4-də

### Heydər Əliyevin vəfatından 14 il ötdü

yazısı səh.7-də

### Deputatlar təmsil etdikləri rayonların icra başçıları haqda danışdılar

yazısı səh.6-də

### Şeyx fətva verdi, islamçılar hərəkətə gəldilər

yazısı səh.9-də

### Bakı metrosunda kütləvi ixtisarlar

yazısı səh.10-da

### "Trampa görə amerikalıların qanı axır" - ABŞ-dakı partlayışın pərdəarxası

yazısı səh.9-da

### Azərbaycan "Yaxşı ölkələr" siyahısında 89-cu yerdə - reaksiyalar

yazısı səh.10-da

### Bu gün Fədayə Laçının məhkəməsidir

yazısı səh.7-də

### Liderlər partiyadaxili demokratiyadan danışdılar, həm də necə...

yazısı səh.13-də

### Parkomatlarla bağlı "pul kimə çatacaq" müəmması

yazısı səh.3-də

### Yol qəzalarının müharibə kimi xronikası: bir həftəyə 27 ölü...

yazısı səh.7-də

## Putindən mühüm Ankara etirafı - Qarabağ Fələstin deyil, ancaq...

Rusiya lideri ərəb-İsrail münaqişəsinin həllinin BMT qərarlarına əsaslanmalı olduğunu bəyan elədi, bəs Qarabağa dair qətnamələr? Moskvanın "ikili standart" yanaşması dəyişə də bilər, əgər...

yazısı səh.5-də



*70 yaşı tamam olan Rəsul Quliyev:*

### "Böyük arzularımın heç birini həyata keçirə bilməmişəm"

yazısı səh.12-də



### İlqar Məmmədovun israrı: udan AŞ PA-dakı anti-Azərbaycan qüvvələrdir

yazısı səh.3-də



*Tahir Kərimli:*

### "Heydər Əliyev həbsimə imkan vermədi"

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 261 (6875) 13 dekabr 2017



## Azərbaycanda illik inflyasiya 13,4% təşkil edir

**2017-ci ilin yanvar-noyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2016-cı ilin müvafiq dövrünə nisbətən 13,4%, o cümlədən ərzaq məhsullarının qiymətləri 17,1%, qeyri-ərzaq mallarının qiymətləri 12,1%, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 9,6% artıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin noyabr ayında oktyabr ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,2%, o cümlədən ərzaq və qeyri-ərzaq məhsullarının qiymətləri 0,3% artım, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə sabit qalıb.

Noyabrda oktyabrla müqayisədə kolbasa məmulatlarının, balıq məhsullarının, süd məhsulları, pendir və yumurtanın, kərə, zeytun və marqarin yağlarının, xiyarın, bibərin, badımcanın, soğanın, kartofun, çayın qiymətlərində bahalaşma, düyünün, unun, manna və qarabaşaq yarmasının, mal, qoyun və toyuq ətinin, günəbaxan və qarğıdalı yağlarının, limonun, portağalın, naringinin, bananın, almanın, heyvanın, narın, xurmanın, kələmin, göyərtinin, kökün, sarımsağın, şəkər və şəkər tozunun qiymətlərində isə azalma müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Ay ərzində qeyri-ərzaq mallarından parçaların, geyim və ayaqqabıların, inşaat materiallarının, mebel və ev əşyalarının, xalça və digər döşəmə örtüklərinin, soyuducuların, kondisionerlərin, iri alət və avadanlıqların, zərgərlik məmulatlarının qiymətlərində bahalaşma, paltaryuyan maşınların, elektrik soba və qaz plitələrinin, mobil telefonların, televizorların, fotoaparatların, noutbuk və planşet tipli kompüterlərin qiymətlərində azalma müşahidə olunub. Digər qeyri-ərzaq mallarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

## Azərbaycan ÜTT-yə nə vaxt üzv olacaq?

**Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması məsələsi aktualdır. Amma inanmıram ki, bu, bir-iki il ərzində mümkün olsun". APA-nın məlumatına görə, bunu xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev deyib.**

Nazir müavini bildirib ki, Avropa İttifaqı ilə danışıqlarda sektoral və siyasət blokunda irəliləyiş olsa da, ticarət və investisiya sahəsi üzrə danışıqlarda ləngimə müşahidə olunur.

"Bu, Azərbaycanın ÜTT-yə üzv olmaması ilə bağlı ola bilər. Onlar hər bir maddəyə ÜTT-ni daxil edirlər", - deyə o vurğulayıb.

## Maştağada gəlinini qətlə yetirmiş kişi polisə təslim oldu

**Daxili İşlər Nazirliyi (DİN) Bakıda baş vermiş qətl hadisəsi ilə bağlı məlumat yayıb. Məlumatda bildirilir ki, dekabrın 11-də Sabunçu rayonunun Maştağa qəsəbəsində yaşayan Seyidmalik Məmmədov ailə münaqişəsi zəminində ov tüfəngindən açdığı atəşlə gəlini Aysel Məmmədovanı qətlə yetirib.**

Polis və prokurorluq orqanları əməkdaşlarının apardıqları profilaktik tədbirlər nəticəsində S.Məmmədov könüllü olaraq Sabunçu Rayon Polis İdarəsinin 14-cü polis bölməsinə gələrək istintaqa təslim olub.

Hadisəni törədərkən S.Məmmədovun istifadə etdiyi müvafiq sənədləri olmayan "İJ-16" markalı ov tüfəngi hadisə yerindən götürülüb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Silahlı Qüvvələrdə QHT və dini qurumların yaradılması qadağan edilir

**Azərbaycan Silahlı Qüvvələrində qeyri-hökumət təşkilatları (QHT) və dini qurumların yaradılması və fəaliyyəti qadağan edilir.**

APA-nın məlumatına görə, bu, yenidən hazırlanmış "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun layihəsinin 5-ci (Silahlı Qüvvələrin hərbi quruculuq və fəaliyyət prinsipləri) maddəsində əksini tapıb.

Maddədə bildirilir ki, Silahlı Qüvvələrdə siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və dini qurumların yaradılması və fəaliyyəti qadağan edilir.

Qanunun hazırda qüvvədə olan variantının müvafiq maddəsi isə belədir: Azərbaycan Respublikasının Silahlı Qüvvələrində siyasi məqsədlər daşıyan hər hansı təşkilatların və həmkarlar ittifaqlarının fəaliyyətinə yol verilmir.




Yeni qanun layihəsi ikinci oxunuşda Milli Məclisin dekabrın 15-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq.

## Metroda növbəti insident

**"Bakı Metropoliteni" QSC-nin "Nəsimi" stansiyasında 29 yaşlı oğlan relslərin üstünə yıxılıb.**

"Report" xəbər verir ki, bunu metropolitenin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayev bildirib.

Onun sözlərinə görə, hadisə dekabrın 12-də saat 12:15 radələrində baş verib. Belə ki, "Nəsimi" stansiyasında 1987-ci il təvəllüdlü Paşayev Oktay Nazim oğlu stansiya yoluna yıxılıb: "Həzi Aslanov-Dərnəgül xətti ilə hərəkət edən qatardan düşən sərnişin digər xəttin stansiya yoluna düşüb. Həmin vaxt stansiyada qatar olmayıb. Xoşbəxtlikdən sərnişin heç bir xəsarət almayıb. İşə getdiyini bildirən Paşayev Oktay başının fırlandığını və buna görə müvazinətini itirdiyini qeyd edib".

Analoji hadisə dekabrın 11-də "İçərişəhər" stansiyasında da baş vermişdi. Belə ki, səhər saat 08.41-də "Həzi Aslanov" - "İçərişəhər" xəttində 1 saylı marşrut üzrə hərəkət edən qatar stansiyaya daxil olarkən ayağı dolaşan 2000-ci il təvəllüdlü Nuriyev Nicat İntiqam oğlu relslərin üstünə yıxılmışdı. Xoşbəxtlikdən o da heç bir xəsarət almamışdı. Amma həmin olayda maşinist fərqlənmişdi: qatarı vaxtında saxlamaqla...

## Moskvada dəhşətli terror aktlarının qarşısı alındı

**Rusiya Federal Təhlükəsizlik Xidməti (FTX) Yeni il şənlikləri və prezident seçkiləri zamanı hazırlanan terror aktlarının qarşısını alıb.**

«RİA Novosti» xəbər verir ki, bu barədə FTX və Milli Antiterror Komitəsinin rəhbəri Aleksandr Bortnikov bildirib.

Qeyd edək ki, dekabrın 10-da Moskva regionunda xüsusi xidmət orqanları əməkdaşları bu hücumları planlaşdıran cinayətkar dəstənin qarşısını alıblar. Qrupun üzvləri Mərkəzi Asiyadan olan şəxslər olub.

Onlar terrorçu kamikadzelərin iştirakı da daxil olmaqla terror aktları hazırlayıblar.



## Azərbaycanda 200 min tona yaxın pambıq yığılıb

**Azərbaycanda pambıq yığımı hələ də davam edir. "Yeni Müsavat" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, dekabrın 11-dək ölkənin pambıq qəbulu məntəqələrinə 199 min 818 ton məhsul təhvil verilib. Bunun 694 tonu ötən şənbə və bazar günləri yığılıb.**

Xatırladaq ki, 2016-cı ildə Azərbaycanda 52,1 min hektardan 87,3 min ton pambıq yığılıb. Bu il isə respublika üzrə cəmi 136 min 413,2 hektar sahədə pambıq əkilib ki, bu da ötən illə müqayisədə 5,8 dəfə çoxdur. Bu sahələrdən 200 min ton pambıq yığılması planlaşdırılırdı ki, son rəqəmlər bu proqnoza əməl olunduğundan xəbər verir.

Qeyd edək ki, Azərbaycanda pambıq yığımının ən səmərəli dövrü sentyabr ayı hesab olunur. Bir qayda olaraq, avqustun son 10 günlüyündə və sentyabr ayında yağışlar düşənə qədər tədarük olunan pambıq keyfiyyətinə görə birinci sinif pambıq hesab olunur. Oktyabrın birinci yarısında tədarük olunan pambıq ikinci sinif, daha sonra tədarük olunan pambıq isə, 3-cü və 4-cü sinif hesab olunur. Bu məhsulların qiyməti də sinfindən asılı olaraqm dəyişir.

Hazırda 1 ton pambığın orta dünya bazar qiyməti 1520 dollar və ya indiki məzənnə ilə 2585 manat təşkil edir.

Yeri gəlmişkən, emal müəssisələrinə təhvil verilmiş hər kiloqram pambığa görə istehsalçılara dövlət tərəfindən 10 qəpik subsidiya ödənilir.

❑ DÜNYA

## Göyçayda avtobus aşdı: 6 yaralı

**Göyçaydakı avtobus qəzasında 6 nəfər xəsarət alıb. APA dəqiqləşdirib ki, hadisə dekabrın 12-də saat 12:30 radələrində Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Göyçayın Bığır kəndi ərazisindən keçən hissəsində qeydə alınıb.**

Sürücü Bəkir Mustafayev Göyçay-Sumqayıt xətti üzrə idarə etdiyi 85-BX-719 dövlət nömrə nişanlı, "Ford Tranzit" markalı mikroavtobusun qəflətən qarşısına çıxan "VAZ 2106" markalı minik avtomobilini vurmamaq üçün manevr edərkən idarəetməni itirib. Mikroavtobus yolun kənarındakı su arxına aşıb.

Hadisə zamanı sürücü Bəkir Mustafayev və sərnişinlərdən 1956-cı il təvəllüdlü Rəsulova Nailə Məmmədhüseyn qızı, 1993-cü il təvəllüdlü Abbasov Elnur Ruslan oğlu və 1976-cı il təvəllüdlü Məmmədov Allahverdi Zabit oğlu müxtəlif dərəcəli bədən xəsarətləri aldıqları üçün təcili yardım stansiyasının avtomobili ilə Göyçay Rayon Mərkəzi Xəstəxanasına aparılıb. Daha iki sərnişinin yüngül xəsarət aldığı bildirilir.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin İstintaq və təhqiqat şöbəsi tərəfindən araşdırma aparılır.



## İran prezidenti Azərbaycana səfərə gələcək

**İran prezidenti Həsən Ruhaninin yaxın günlərdə Azərbaycana səfər edəcəyi gözlənilir.**

"Trend"in məlumatına görə, bunu İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə deyib.

## Rusiya idmançıları Olimpiadada neytral bayraq altında çıxış edəcək

**Rusiya Olimpiya Komitəsinin Olimpiya yığıncağı yerli idmançıların 2018-ci il Qış Olimpiya Oyunlarında neytral statusda çıxış etmək istəkləri ilə bağlı bəyanatını dəstəkləyib.**

TASS xəbər verir ki, müvafiq qərar yekdilliklə qəbul olunub. Pxençxan-2018-də iştirak etməklə bağlı yekun qərarı hər bir idmançı özü verəcək.

Bir müddət əvvəl Rusiya prezidenti Vladimir Putin də ölkə rəhbərliyinin idmançıların Qış Olimpiya Oyunlarında neytral statusda iştirakına mane olmayacağını bildirib.

Qeyd edək ki, Rusiya yığması 2018-ci ildə Cənubi Koreyada keçiriləcək Qış Olimpiya Oyunlarından kənarlaşdırılıb. Bununla belə, qan analizlərində dopinq tapılmayan idmançılar oyunlarda neytral bayraq altında çıxış edə bilərlər.

## Yaxın 2-3 gündə ölkədə hava şəraiti sabit keçəcək

**"Azərbaycan ərazisində yaxın 2-3 gündə hava şəraiti sabit keçəcək".**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova deyib.

O bildirib ki, dekabrın 13-14-də ölkə ərazisində hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir: "Lakin bəzi şərq rayonlarında qısa müddətli yağış yağacağı ehtimalı var. Temperatur rejimində mühüm bir dəyişiklik gözlənilmir. Şərq küləyi üstünlük təşkil edəcək".

## Xəzəryanı dövlətlər Nursultan Nazarbayevin təklifini gözləyir

**"Qazaxıstan prezidenti Nursultan Nazarbayev gələn ilin birinci yarısında konkret tarixdə Xəzəryanı dövlət başçılarının sammitinin keçirilməsi barədə təklif verəcək. Tədbirin tarixi Xəzəryanı dövlətlərin başçıları ilə razılaşdırılacaq".**

APA-nın məlumatına görə, bunu xarici işlər nazirinin müavini Xələf Xələfov bildirib.

X. Xələfov deyib ki, o vaxtadək razılaşdırılmış Konvensiya layihəsi müvafiq dövlətlərdə daxili prosedurlardan və digər texniki mərhələlərdən keçəcək.

# İlqar Məmmədovun israrı: udan AŞ PA-dakı anti-Azərbaycan qüvvələrdir

**Azərbaycan hakimiyyəti ilə həbsdə olan REAL sədri İlqar Məmmədov arasında mövcud problemin həlli son günlər daha da dərinləşib. Artıq dekabrın 5-dən etibarən Avropa Şurası Azərbaycana qarşı prosedura başladıb, proseslər getdikcə xoşagəlməyən məcraya doğru yönəlir. Əslinə qalsa, hökumətin verdiyi mesajlarla İ.Məmmədov məsələsini həll etmək istəyində olduğunu söyləmək mümkündür.**

Belə ki, rəsmi Bakıya qarşı başladılan proseduradan sonra prezidentin Xarici siyasət məsələləri üzrə köməkçisi Novruz Məmmədovun REAL sədrinin məhkəməyə müraciət etmək yolu ilə azadlığa çıxmaq şansının olduğunu dilə gətirməsi bunun bariz sübutudur. Lakin İ.Məmmədovun dekabrın 11-də vəkili ilə həbsxanada görüşü zamanı bu hüququndan imtina etməsi yeni problemlərə yol açıb. Doğrudur, vicdan məhbusuna haqq qazandırmaq mümkündür. İki aydan sonra həbsinin 5 ili tamam olan İ.Məmmədov özünü günahsız hesab edir və bəraət əsasında azadlığa çıxmaq istəyir. Məhkəməyə müraciət yolu ilə məhkumluğun üzərindən götürüləcəyinə isə inanmır. Bundan əlavə, 10 aydan sonra ölkəmizdə prezident seçkiləridir və İ.Məmmədov da bir siyasətçi kimi bu seçkilərdə iddiaçı olmaq istəyir. Lakin bəraət almadan bu mümkünsüz görünür. Hakimiyyət tərəfinə gəldikdə isə onu əminliklə söyləmək mümkündür ki, iqtidar Qərbin qarşısında geri çəkilmək görüntüsü vermək istəmir və yaxşı başa düşür ki, İ.Məmmədovun timsalında bəraət alan bir şəxsin təzminat tələb etmək hüququ var.

Məhz qeyd etdiyimiz bu amillər ölkəmiz adına ciddi təhlükələr yaratmaqdadır. Bu situasiyanın yaranmasında maraqlı olan və sonunda buna nail olan Avropa Şurası və digər beynəlxalq institutlarda ölkəmiz əleyhinə fəaliyyət göstərən ermənipərəst qüvvələr artıq bundan yaxşıca yararlanırlar. Nə Azərbaycan hakimiyyətinin, nə də İ.Məmmədovun mövcud durumdan nələrsə qazandıqlarını söyləmək qətiyyən mümkün deyil, əksinə, hər iki tərəf itirir.







İlqar Məmmədov

**Fazil Mustafa:** "Bu, Avropa Şurasında müəyyən qüvvələrin əlinə oynamaq, onların maraqlarını təmin etməkdir"

**Səidə Qocamanlı:** "İlqar Məmmədovla bağlı yaranan situasiyada uduzan biz olduq"

**AŞ PA-dakı nümayəndə heyətimizin üzvü, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa bildirdi ki, hakimiyyət tərəfindən konkret olaraq İlqar Məmmədova "yol xəritəsi" göndərilib:** "Cəzasının 3/2-ni çəkib, müraciət əsasında azadlığa buraxılır. İndi müraciət et, azadlığa çıx və sonra bəraətlə bağlı addımlarını at, yaxud hansısa bir siyasi reabilitasiya ilə bağlı addımlarını davam etdir. Amma buradakı gözləmə məsələsi, açığı, bir sıra müəmmalar ortaya çıxardı. Özünü günahkar saymırsa, müəyyən addımlar ata bilər. Amma bunları azadlığa çıxandan sonra da edə bilər. Bu qədər inadkarlığa səbəb görmürəm. Mənim siyasi fəaliyyətimə qadağa qoyulmasın deyir. Bu qadağa da yoxdur. Hazırda radikal müxalifət qanadında istənilən şəxs, qüvvə fəaliyyətlə məşğuldur və buna nail olan da yoxdur. Bu baxımdan onun tələblərinin daha çox bəhanə tələblərinə oxşayır. "Yol xəritəsi" verilibsə, buna uyğun addım atıb azadlığa çıxmaq lazımdır. Əgər o, azadlığa çıxmaqdan imtina edirsə, bunu uzadırsa, bu, Avropa Şurasında müəyyən qüvvələrin əlinə oynamaq, onların maraqlarını təmin etməkdir. Ona görə də burada bir məntiq görmürəm. Çıx, bəraət uğrunda mübarizəni apar. Azadlıqda mübarizə aparmağın daha uyğundur, nəinki sonrakı vəziyyət. Burada məhkəmələrə inamsızlıq məsələsi yoxdur. Qoy o məhkəməyə bəraət üçün müraciət etsin, Azərbaycan məhkəməsi bunu təmin etməsin. Nəzərə almaq lazımdır ki, bundan sonra hamısı İlqar Məmmədova haqq qazandıracaq ki, görürsünüz, məhkəmə onun müraciətini təmin etmədi. Əslində bu yenə də onun xeyrinə olar".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı iştirak etdikləri beynəlxalq tədbirlərdə İ.Məmmədov məsələsi ilə bağlı ciddi problemlər yaşadıqlarını bildirdi:** "İlqar Məmmədovla bağlı yaranan situasiyada uduzan biz olduq. AŞ PA-nın son oktyabr sessiyasında Strasburqda idik. Orada Azərbaycanı sevməyən qüvvələrin nə qədər bu situasiyadan razı qaldıqlarını öz gözlərimizlə gördük. Arada kim uduzur? Vətənimiz, Azərbaycanımız uduzur. Ölkəmizin üzünə gələn hər bir xoşagəlməz söz dövlətimizi sevənləri ağrıtmaya bilməz. Ona görə də bu problemin həllinin bir yolu var. Sadəcə olaraq, qarşıdan iki böyük bayram gəlir, həm Yeni il, həm də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü. İlqar Məmmədov və onunla birlikdə digər siyasi məhbuslar azad olunsun. Onunla da bu problem qapansın. Bildiyiniz kimi, bir neçə gün əvvəl bir qrup hüquq müdafiəçisi olaraq, ölkə başçısına məktub ünvanladıq. Həmin məktubda öz siyahımızı göndərmişik. İlqar Məmmədovun da adının olduğu o siyahıdakı şəxslərin azadlığa buraxılmasını xahiş etmişik. Bu problem Azərbaycan üçün tamamilə qapanmalıdır. Biz bir daha Strasburqa gedəndə ölkəmiz adına o qınaqları eşitməyək. Hüquq müdafiəçiləri müxtəlif olur, kimlərsə bundan yararlanır ki, bu hazırda göz qarşısındadır. İlqar Məmmədovun məsələsindən yararlananlar da az deyil. Bizlər ölkə daxilində bundan ağrı çəkirik. Bu baxımdan hesab edirəm ki, yeganə yol onların azadlığa buraxılmasıdır".

**Hüquq müdafiəçisi hər iki tərəfin inadkarlığının dövlətçiliyimizə vurduğu zərbələrə də toxundu:** "Bəlkə də burada elə maraqlı qüvvələr var ki, vəziyyətin bu şəkildə ciddiləşməsini istəyirlər. Bunları da nəzərə almaq lazımdır. Situasiya elədir ki, hər şey gözümüzün qarşısındadır, hər şeyi görə bilirik. Hər halda, ona əminəm ki, hər şey ölkə başçısının müdrikliyindən asılıdır. Dəfələrlə olub ki, bizim ağlımıza gəlməyən, siyahımızda olmayan, problemli olan insanları prezident özü siyahıya əlavə edib, azadlığa buraxıb. Bu baxımdan hər şeyin onun iradəsinə söykəndiyini düşünürəm. Ümid edirəm ki, bu ayın sonunda bu problem aradan qalxacaq. Baxmayaraq ki, hər iki tərəf dirənib, bu heç bir halda yaxşı bir şey deyil. Doğrudur, hakimiyyət İlqar Məmmədova tərəf bir addım atıb. Novruz Məmmədovun açıqlaması cüzi olsa da, bir işıq yeri qoyur. Hüquq müdafiəçiləri də o insanlardır ki, kiçik bir işartı görən kimi ondan yapışır, ümidlərini itirmir. Bizi artıq sevindirmək lazımdır, çünki biz o sevincə böyük ehtiyac duyuruq. İşimizə verilən qiymətə çox ehtiyacımız var. İşimizin biri də odur ki, ölkədə əmin-amanlıq olsun, ölkəmizin adı yaxşılığa çəkilsin, belə situasiyalar olmasın".

❑ **Cavanşir ABBASLI**

# Parkomatlarla bağlı "pul kimə çatacaq" müəmması

## Ekspert: "Azərbaycanda yolların 3 sahibi var..."

**Bəzi yollarda avtomobillər üçün ayrılmış parklanma yerlərindən əldə olunan vəsait bələdiyyələr tərəfindən toplanacaq. Bununla bağlı "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanunun 7-ci (Yerli büdcənin gəlirləri) maddəsinə əlavələr edilir. Layihəyə görə, maddədə yerli büdcənin gəlirləri sırasına "bələdiyyə yollarında təşkil edilmiş parklanma yerlərindən daxil olan vəsait" də əlavə edilir.**

Buna uyğun olaraq "Avtomobil yolları haqqında" Qanuna dəyişikliklər də müzakirəyə çıxarılır. Layihə Milli Məclisin dekabrın 15-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq.



Məlum olduğu kimi, parkomatların quraşdırılması və oradan gələn vəsaitin yığılması səlahiyyəti Bakı Şəhər İcra Hakimiyyətinə məxsus idi. Bəs görəsən, qanuna edilən bu əlavə Bakı meriyasının səlahiyyətinin məhdudlaşdırılmasıdırmı? Yoxsa söhbət, sadəcə, bələdiyyələrin nəzdində olan yollarda quraşdırılan parkomatlardan gedir?

"Yeni Müsavat"a açıqlamasında bu sualı cavablandıran nəqliyyat eksperti Ərşad Hüseynov bildirdi ki, qanuna edilən dəyişikliyi BŞİH-in səlahiyyətinin əlindən alınması kimi şərh etmək yanlışdır: "Qanuna edilən dəyişikliyi bu cür şərh etmək olmaz. Hazırda mövcud olan heç bir parklanma yeri bələdiyyələrə verilməyəcək. Qanuna olunan dəyişiklik onu ehtiva etmir. Keçən ilin dekabr ayında qanuna dəyişiklik olunmuşdu ki, ümumi istifadədə olan yolların kənarlarında parklanma yerlərini yol kimindirsə, o təşkil etsin. Yol dövlətindirsə, onu yerli icra hakimiyyəti orqanı yol polisi ilə birgə təşkil edir. Yox, əgər yol bələdiyyənindirsə, həmin parklanma yerlərini yol polisi ilə razılaşdırmaqla bələdiyyə təşkil edir. Yox, əgər özəl yoldursa, onun sahibi polislə razılaşdırmaqla parklanma yerini təşkil edir. Bir il bundan öncə qəbul olunan dəyişikliyi indi "Avtomobil yolları haqqında" Qanuna gətiriblər. Bu, sadəcə, texniki bir prosedurdur, yeni heç bir yenilik yoxdur. Bələdiyyə heç bir parklanma yeri verilməyəcək. Sadəcə, onların belə bir səlahiyyəti var, başqa bir qanunda var idi, bu qanuna da yazdılar".

**Ekspert vurğuladı ki, bələdiyyələr yalnız özlərinin balansında olan yollarda parklanma yerləri yarada bilərlər:** "Bələdiyyələr özlərinin balansında olan yolların kənarlarında əgər bütün şərtlər və imkanlar varsa, ödənişli parklanma yeri yarada bilər. Təbii ki, ondan gələn vəsaitləri də özü yığacaq. Ümumiyyətlə, Azərbaycanda yolların 3 sahibi var. Yolların çoxu, o cümlədən Bakı şəhərinin mərkəzi küçələri, prospektləri dövlətindir. Məhəllədaxili yollar, rayon mərkəzlərinin küçələri, qəsəbə və kənd yolları bələdiyyə yollarıdır. Bir də özəl yollar ola bilər. Bizdə hələ ki özəl yol yoxdur. Bakıdakı parklanma yerlərinin hamısı dövlətin balansında olan küçə və prospektlərdədir. Ona görə də Bakı Şəhər İcra Hakimiyyətinin nəzarətindədir. Onu başqa bir quruma da vermirlər. Bu yolların bələdiyyələrə heç bir aidiyyəti yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 261 (6875) 13 dekabr 2017

**Prezident İlham Əliyevin dekabrın 5-də verdiyi sərəncamla vergilər naziri vəzifəsindən uzaqlaşdırılan Fazil Məmmədovun ətrafında qalmaqallı proseslər davam edir. Sabiq nazirin səhhətində yaranan problemə görə vəzifəsindən göndərildiyi deyilsə də, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin birbaşa iştirakı ilə Mikayıl Cabbarovun Vergilər Nazirliyinin kollektivinə təqdimatı, vergilər sahəsində problemlərin olmasını dilə gətirməsi ortada ciddi mətləblərin olmasından xəbər verir. Həmçinin iqtidarın danışan dili sayılan deputat Siyavuş Novruz "Yeni Müsavat" qəzetinə müsahibəsində demişdi ki, kimsə tutduğu vəzifədən azad olunursa, deməli, onun işində nöqsan var.**




# Fazil Məmmədovun əmlakları əlindən alınmağa başlandı - təfərrüat

## Sabiq nazirin vəzifədə olarkən yağmaladığı mal-mülkü geri alınır, ata yurdundakı 100 hektar torpağına əl qoyuldu; həbs təhlükəsi ilə üzləşən icra başçısı Alimpaşa Məmmədovu şikayətçiləri şəxsən qəbul etməyə vadar edən səbəblər...

Sabiq nazir özü də mətbuata açıqlamasında "Cənab Prezident məni sərəncam verərək işdən azad edib. Bu barədə səlahiyyətlər prezidentə aiddir və müzakirə olunmur. Mən təşəkkür edirəm. Prezident nə məsləhət bilib, odur. Səhhətimdə az problem var, yaxşıyam, narahat olmayın. Mən bütün jurnalistlərə təşəkkür, minnətdarlıq edirəm" deyib.

İddialara görə, 5 dekabr tarixində işdən çıxarılan Fazil Məmmədovun barəsində Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev həmin gün nazirlikdə olarkən olduqca sərt danışıb. R.Mehdiyevin rəhbərliyi ilə baş tutan iclasda hətta Vergilər Nazirliyinin sabiq rəhbərliyində təmsil olunan şəxslər haqda sonrakı araşdırmaların başlanmasına siqnal hesab olunan ifadələr işlədilib. Fazil Məmmədovun sahibkarlara qarşı əməllərinə olduqca sərt qiymət verilib.

Nazir işdən çıxarılandan sonra onun komandasının da "təmizləmələr"ə məruz qalacağı şübhəsizdir. Mənbələrimiz iddia edir ki, hazırda büdcədə kəsir olduğundan Fazil Məmmədovun komandasına dəyib-dolaşmırlar. 2018-ci ilin əvvəlində isə situasiyanın dəyişəcəyi vurğulanır.

Fazil Məmmədov işdən çıxarılandan 1 gün sonra Ali Məhkəmənin yaydığı rəsmi məlumat bu baxımdan maraq doğurur. Dekabrın 5-də axşam saatlarında artıq sabiq nazirə çevrilən Fazil Məmmədovun fəaliyyətinə dekabrın 6-da səhər Ali Məhkəmədən belə bir qiymətverici məlumatla münasibət açıqlanıb.

**Rəsmi məlumat belə idi:**

"Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin Vergilər Nazirliyinin struktur qurumlarına qarşı inzibati-iqtisadi məhkəmələrdə 2016-cı ildə 869, 2017-ci ilin birinci yarısında 218, cəmi 1087 iddiaya baxılıb". "APA-Economics"in məlumatına görə, bu barədə Azərbaycan Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının sədri Hikmət Mirzəyev məlumat verib. H.Mirzəyev bildirib ki, bunlardan 688 (63,3%) iş üzrə qərarlar vergi ödəyicilərinin xeyrinə verilib. 184 (16,9%) iş üzrə iddialar təmin edilməyib, 215 (19,8%) iddia isə mümkün sayılmayıb. "Təəssüflə qeyd etmək istərdim ki, bəzən mətbuat orqanlarında məhkəmələrdə baxılan işlər barədə həqiqətə uyğun olmayan və qərəzli yazılar dərc olunur. Həmin yazılardan belə bir yanlış nəticə çıxır ki, guya məhkəmələr vətəndaşların, sahibkarların və hüquqi şəxslərin inzibati orqanlara qarşı iddialarını rədd edir, onların qanuni hüquqlarını müdafiə etmirlər. Sözsüz ki, bu, belə deyil. Əvvəl qeyd etdiyim faktlar, baxılan işlərin statistikası həmin mətbu orqanların qərəzli və həqiqətə uyğun olmayan məlumatlarını təkzib edir. Göründüyü kimi, açıqlanan rəqəmlər onu göstərir ki, vergi ilə yaranmış mübahisələr əksər halda sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin xeyrinə həll edilir. 1 noyabr 2017-ci il tarixinə olan məlumata əsasən, respublika üzrə 902 min 303 vergi ödəyicisi qeydiyyatdan keçib. Onlardan 399 min 774 vergi ödəyicisi aktiv fəaliyyətdədir və vaxtında vergiləri ödəyirlər. Məhkəmələrdə bu cür baxılan işlərin sayı az olduğundan (aktiv vergi ödəyicilərinə nisbətdə işlərin sayı 2016-cı il və 2017-ci ilin 6 ayı üzrə cəmi 1087, yəni 0,3 faiz təşkil edir) vergi münasibətlərinə heç bir təsir göstərə bilməz. Vergi ödəyicilərinin ümumi sayını nəzərə alaraq bu cür mübahisələrin az olması onu göstərir ki, əksər hallarda vətəndaşlar və sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər vergi öhdəliklərini yerinə yetirirlər", - deyə H. Mirzəyev vurğulayıb...

Fazil Məmmədov vəzifədə olarkən Ali Məhkəmədən belə bir açıqlama verilərdimi? Ölkənin əsas nazirliklərindən biri haqda "qanunsuz qərarlar qəbul ediblər" anlamını verən fikirlər səsləndirilərdimi?

Fazil Məmmədovun işdən çıxarılması sıradan bir nazirin vəzifədən uzaqlaşdırılması deyil. İlin sonunda, büdcə kəsiri olduğu bir vaxtda Fazil Məmmədovu yola salmazdılar. O, xəstə olsaydı belə, kreslosunda oturub işini görmək məcburiyyətində idi. 18 müşaviri olan bir nazirin xəstəliyi ilə əlaqədar işinin öhdəsindən gəlmədiyi inandırıcı deyil.

Heç Fazil Məmmədovun özü də xəstə olması haqda mətbuatda barəsində deyilən fikirləri yaxına buraxmır. "Az xəstəyəm" deməklə işini davam etdirə biləcəyi haqda mesaj verməyindən də qalmır...

İndiki vəziyyətdə isə Fazil Məmmədov və komandası qeyri-müəyyənlik içində talelərinin necə olacağını həyəcan və təşviş içində gözləyirlər. Bu arada 4 milyard 500 milyon manatın "yeyilməsi" üzərindən nazirin işdən çıxarılması iddiası da ortadadır. Fazil Məmmədovun komandası təbii ki, bundan ciddi narahatdır.

Həmçinin yerlərdən onun kadrları olan icra başçılarının da çaşqınlıq içərisində olmaları haqda xəbərlər gəlməkdədir.

Redaksiyamıza bu yöndə çox maraqlı nüanslarla zəngin bir xəbər daxil olub. Fazil Məmmədovun qeyri-rəsmi qubernatorluğuna daxil olan Şəmkirin icra başçısı Alimpaşa Məmmədovun qəbuluna həftənin ilk iş günündə yerli sahibkar qadın gedib.

Vaxtilə Vergilər Nazirliyində məsul post tutan A.Məmmədovun icra başçısı olaraq qəbuluna gedənləri qəbul etməməsi, onlarla sərt davranması haqda mətbuatda əvvəllər yazılar olub. Ən yaxşı halda şikayətçiləri icra hakimiyyətində digər vəzifə sahibləri qəbul ediblər. Həftənin əvvəlində isə belə olmayıb.

Alimpaşa Məmmədovun göstərişi ilə bu ilin əvvəlində Şəmkirdə yerləşən sahibkar qadına məxsus şadlıq sarayının fasadındakı üzlük sökülüb. Alimpaşa Məmmədov aylar öncə sahibkara məxsus şadlıq sarayının üzlüyünü sökdürərkən deyibmiş ki, həmin üzlük gözünə xoş görünmür, sökdürüb aqlay daşla üzlətdirəcək. Lakin aylar keçsə də başçı vədinə əməl etməyib. Uzun get-gəldən sonra icra hakimiyyətindən sahibkar qadına deyiblər ki, Fazil Məmmədovun qohumu və Şəmkir şəhərinin meri Çingiz Həsənova tapşırılacaq, onun şadlıq sarayı satın alınacaq. Amma bu vədə də əməl olunmayıb, 2 ay qabaq Çingiz Həsənov qəfil yoxa çıxıb. Belə iddialar var ki, o, şəhərin abadlaşdırılması üçün ayrılan 10 milyon manat pulla ölkədən çıxıb və geri qayıtmayıb. Buna görə də vəzifəsindən uzaqlaşdırılıb. Bildirilir ki, şadlıq sarayının fasadındakı üzlüyün sökülməsinə də birbaşa Çingiz Həsənov rəhbərlik edib. Fasad sökülərək bərbad hala salındığından şadlıq sarayında heç kim toy məclisi sifariş etməyib. Fasadı sökük şadlıq sarayı uzun müddət toy üzünə həsrət qalıb. Aylardır ki, Şəmkir İcra Hakimiyyətinə ayaq döyən, hər dəfə Alimpaşa Məmmədovdan köməkçiləri vasitəsilə "binanı satın alacağıq, gözləyin" xəbərini alan sahibkar qadını bu dəfə başçı şəxsən qarşılayıb.

2 ay əvvəl Şəmkir meri Çingiz Həsənovun, 1 həftə əvvəl Fazil Məmmədovun işdən çıxarılmalarını Alimpaşa Məmmədova xatırladan sahibkar qadın uca səslə danışıb. Başçıya "bəs mənə söz verdiz, dediz ki, aqlay edəcəyik, etmədiz. Çingizi göndərdiz, Çingiz qaçıb gedib, dediz ki, Fazil Məmmədovdan icazə alıb, şadlıq evini satın alacağıq, Fazil Məmmədovu da işdən çıxardılar" deyib və tələb edib ki, şadlıq sarayı üzlənsin.

Alimpaşa Məmmədov qadını sakitləşdirməyə çalışıb, ondan sakit tərzdə danışmasını xahiş edib. Qadın isə başçıya deyib ki, "bu günə qədər siz bərkdən danışırdız, indi də mən bərkdən danışacağam. Ya pulumu verin, ya da şadlıq evini üzlədin".

Qaynağımız deyir ki, başqa vaxt olsaydı, Alimpaşa Məmmədov qadını zor gücünə icra hakimiyyətinin binasından çıxartdırardı. Ümumiyyətlə isə özü qəbul etməzdi. İndi isə başçı çətin durumdadır deyə özündən şikayətlərin olmaması üçün əl-ayağa düşüb.

Digər bir xəbərdə deyilir ki, Alimpaşa Məmmədov ötən həftənin cümə günü axşamdan Gədəbəyin icra başçısı Ramiz Yediyarovla birgə Bakıya, Binəqədinin icra başçısı Xaləddin İsgəndərovun yanına yollanıblar. Çıxılmaz durumda olan başçılar Fazil Məmmədovla yaxın qohumluq əlaqəsində olan, onun göstərişlərini hər iki başçıya çatdıran Binəqədinin icra başçısı Xaləddin İsgəndərovdan nə baş verdiyini xəbər alıblar. Sonuncu Şəmkirlə Gədəbəyin icra başçılarına ümidverən bir söz deməyib, rəhbərlik etdikləri rayonlarda bütün qanunsuzluqları aradan qaldırmalarını, problemləri yoluna qoymalarını tapşırıb.

Modern.az saytı isə yazır ki, Fazil Məmmədov "sabiq" statusu aldıqdan sonra nazirlikdə onunla və yaxın çevrəsi ilə bağlı ciddi araşdırmalara başlanıb. Gələn məlumatlarda sabiq nazirin Şəmkirdəki 100 hektar sahəyə malik mülkünün əlindən çıxdığı da iddia olunur. Heç kimə sirr deyil ki, zaman-zaman vergilər nazirinin tam nəzarətində olan Şəmkir rayonunda onun gördüyü işlərlə, həyata keçirdiyi layihələrlə bağlı ictimaiyyət arasında sensasion məlumatlar yer alıb və mətbuatda silsilə materiallar yayımlanıb. 17 il Vergilər Nazirliyinə rəhbərlik etmiş Fazil Məmmədovla bağlı araşdırmaların davam edəcəyi səs-küyün hələ qabaqda olduğu vurğulanır. Belə görünür ki, Fazil Məmmədovun komandasında çalxalanma son həddə qədər gərginləşib, komanda üzvləri ayaqda qalmaları, həbsə getməməsi üçün çaba göstərirlər. Yaxın zamanlarda Fazil Məmmədovun komandasının hansı aqibəti yaşayacağına şahidlik edəcəyik...

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 261 (6875) 13 dekabr 2017

# Putindən mühüm Ankara etirafı - Qarabağ Fələstin deyil, ancaq...

## Rusiya lideri ərəb-İsrail münaqişəsinin həllinin BMT qərarlarına əsaslanmalı olduğunu bəyan elədi, bəs Qarabağa dair qətnamələr? Moskvanın "ikili standart" yanaşması dəyişə də bilər, əgər...; Kremlin arxasında durduğu işğalçı Ermənistanın isə xarici borcu artır...

**Rusiya prezidenti Vladimir Putinin Türkiyə səfəri bir sıra maraqlı detallar və mühüm məqamlarla yadda qaldı. Hansılar ki, dolayısıyla Azərbaycan kontekstində də əhəmiyyətli hesab oluna bilər. Onlardan biri də Kreml başçısının ABŞ prezidenti Donald Trampın Qüdsü İsrailin paytaxtı elan eləməsi haqda qərarına türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla eyni mövqe sərgiləməsi oldu.**



**"Yeni Müsavat"ın verdiyi xəbərə görə, Putin Ankarada Ərdoğanla birgə keçirdiyi mətbuat konfransında bununla bağlı deyib:** "Rusiya hesab edir ki, ərəb-İsrail nizamlanması müstəsna olaraq və bütünlüklə əvvəllər BMT çərçivəsində qəbul edilmiş qərarlar çərçivəsində həyata keçməlidir. Qüdsün konkret statusu isə Fələstin-İsrail birbaşa danışıqlarının predmeti olmalıdır... ABŞ-ın qərarı Yaxın Şərqdə vəziyyəti daha da gərginləşdirəcək".

*****

Qeyd edək ki, əsas problem də elə BMT Təhlükəsizlik Şurasının 1949-cu ildə Fələstin ərazisində iki dövlətin yaradılması və Qüdsün iki paytaxt üçün iki yerə bölünməsi (1967) haqda qətnamələri ilə bağlıdır. Ancaq on illərdir bu sənədlər İsrail dövləti tərəfindən icra olunmur. Fələstin dövlətinin yaradılması da bu və digər səbəblərdən yekunlaşa bilmir.

Təbii ki, məsələdə dünyanın 1 nömrəli supergücü ABŞ-ın İsrailin əsas müttəfiqi olması faktı həlledici önəm daşıyır. Prezident Donald Trampın ötən həftə Qüdslə bağlı elan elədiyi qərar isə bir daha əminlik yaradır ki, münaqişə ("xəmir") hələ çox "su" aparacaq. Həm də o səbəbə ki, nə ABŞ-ın NATO və Avropa Birliyi (AB) üzrə müttəfiqləri, nə də digər əksər ölkələr Trampın qərarını dəstəkləyir.

Yeri gəlmişkən, İsrailin baş naziri Benyamin Netanyahunun bu məqsədlə 22 ildə ilk dəfə Avropa Birliyinə elədiyi səfər nəticəsiz bitib. Musavat.com-un xarici qaynaqlara istinadən verdiyi xəbərə görə, Avropa Birliyi rəsmiləri Netanyahunun təşkilata üzv dövlətlərin də ABŞ kimi öz səfirliklərini Qüdsə köçürmək və Qüdsü İsrailin paytaxtı kimi tanımaq xahişini geri çevirərək, onu ümidsiz yola salıblar. **Bununla bağlı AB diplomatiyasının başçısı Federika Moqerini deyib:** "Hesab edirik ki, İsraillə Fələstin arasında konfliktin yeganə real həlli iki xalq üçün iki dövlətin yaradılması və Qüdsün həm İsrailin, həm də Fələstin dövlətinin paytaxtı ola bilər".

*****

İslam dünyasının, Türkiyənin, Rusiyanın ardınca Avropa Birliyinin də faktiki şəkildə eyni mövqe bildirməsi Dağlıq Qarabağ məsələsi üçün də prinsipial əhəmiyyət kəsb edir. Çünki məsələdə sövq-təbii BMT qətnamələrinin önəmi artmış olur. Hansı təşkilat ki, Dağlıq Qarabağa, erməni işğalına dair də analoji sənədlər qəbul edib.

Təəssüf ki, İsrail-Fələstin münaqişəsinin həllində BMT sənədlərinin vacibliyindən danışan Vladimir Putin *("Dil çaşıb düzünü deyər")* Qarabağ məsələsinə gələndə nədənsə BMT qətnamələri yadına düşmür, "tərəflər razılıq əldə etsin, biz qarant duraq" kimi şablon bəyanatlar səsləndirir. Yaxud da Rusiya rəsmiləri separatçılığa, işğalçılığa don geydirmək üçün "üç prinsipli həll"i *(ərazi bütövlüyü, güc işlətməməklə hədələmə, öz müqəddəratı təyinetmə)* Azərbaycana sırımaq istəyirlər.

Bu yöndə daha da qabağa gedən Rusiya XİN başçısı, erməni kökənli Sergey Lavrovun canfəşanlığı xüsusi diqqət çəkir - hansı ki, bu ilin əvvəllərində "Dağlıq Qarabağda əməliyyatlar Azərbaycanın daxili işi deyil" deməklə həm də ölkəmizin suverenliyini və ərazi bütövlüyünü şübhə altına almağa çalışıb.

Odur ki, Azərbaycan bundan sonra da Qarabağ məsələsi ilə bağlı beynəlxalq sənədlərdə məhz ərazi bütövlüyü və suverenliyin əks olunmasını özünün əsas prioritetlərindən biri hesab eləməli, erməni işğalı ilə bağlı "ikili standart" yanaşmasına imkan verməməlidir. Necə ki, Bakı AB-nin son Brüssel sammitinin yekun bəyannaməsində buna nail oldu. Xüsusən də Rusiyanın, Putinin Dağlıq Qarabağ məsələsinə "ikili standart" yanaşmasından uzaqlaşdırmaq üçün qardaş Türkiyənin Rusiyaya, Ərdoğanın isə Putinə getdikcə artan təsirləri mühüm rol oynaya bilər.

Trampın Qüds qərarından sonra baş verənlər də bir daha göstərdi ki, BMT qətnamələri nə qədər dişsiz sayılsa da, yeri gələndə onlar yada düşür, hələ o yana da keçir - üstündən 70 il ötməsinə rəğmən. Biz də Putinin dilindən tutub, onu Qarabağ məsələsində də BMT sənədlərinə sayğılı olmağa çağırmalıyıq. Eləcə də digər vasitəçi dövlətlərin rəsmilərini...

*****

Bu arada məhz "ikili standart" yanaşması üzündən həlli uzanan Qarabağ münaqişəsi nəticəsində Ermənistanın - Rusiyanın arxasında durduğu işğalçı ölkənin xarici borcu artmaqdadır. "Yeni Müsavat" erməni nəşri "Joxovurd"a istinadən xəbər verir ki, təkcə noyabr ayında borc 108 milyon dram (62 milyon 700 min dollar) artaraq 6 milyard 404 milyon 700 min dollara çatıb. Məlumatı ölkənin Maliyyə Nazirliyi yayıb.

Nəşr qeyd edir ki, Ermənistanın ümumi dövlət borcunda xarici borc 5 milyard 115 milyon, daxili borc isə 1 milyard 289 milyon dollar təşkil edir. Aydındır ki, bu da son göstərici deyil. Ermənistanın izolyasiyası davam etdikcə, iqtisadi inkişaf üçün şərtlər əlçatmaz olduqca, ən əsası, İrəvan Moskvanın Güney Qafqaz siyasətinin yedəyində getdikcə, təcavüzkar ölkənin durumu ildən-ilə daha da pisləşəcək.

Əlavə edək ki, Ermənistanın xarici borcu ölkənin ümumi illik büdcəsindən (2.63 milyard dollar) az qala, iki dəfə artıqdır və bu fərq də ildən-ilə böyüyür.

❑ **"Yeni Müsavat", Siyasət şöbəsi**



# Putinin seçki öncəsi Suriya gedişi...

## Rusiya ordusunun bir hissəsi Suriyanı tərk edir, amma ruslar daha 50 il bu ölkədə qalacaqlar

**Xəbər verdiyimiz kimi, dekabrın 11-də Rusiya prezidenti Vladimir Putin gözlənilmədən Suriyaya səfər edib. Eyni gündə Misir və Türkiyəyə də səfəri planlaşdırılan Rusiya prezidentinin təyyarəsi səhər saatlarında Suriyanın Laziqiyyə vilayəti ərazisində yerləşən Xmeymim Hərbi Bazasına gəlib.**

Burada Putini hərbçilər və Suriya prezidenti Bəşər Əsəd qarşılayıb. Putinə bazada məruzə edilib və daha sonra Rusiya lideri hərbçilər qarşısında çıxış edib. Putin İŞİD üzərində qələbə qazanıldığını qeyd edib və eyni zamanda Rusiya silahlı qüvvələrinin Suriyadan çəkiləcəyini bildirib. Putin xüsusilə geri çəkilmək ifadəsi üzərinə vurğu edərək bu qərarın geri çəkilmə olmadığını, əməliyyatın əsas hissəsinin başa çatması ilə əlaqədar verilən qərar olduğunu bildirib. Eyni zamanda o deyib ki, Rusiya ordusunun əhəmiyyətli hissəsi Suriyadan çıxarılsa da, Xmeymim və Tartusdakı bazalar qalacaq.

Qeyd edək ki, Putini Suriya səfərində müdafiə naziri Sergey Şoyqu və baş qərargah rəisi Gerasimov müşayiət edib. Şoyqu jurnalistlərə bildirib ki, artıq əsgərlərin Suriyadan çıxarılması prosesi başlayıb. Ancaq jurnalistlərin prosesin nə qədər davam edəcəyi ilə bağlı sualına Şoyqu dəqiq cavab verməyərək, bunun "duruma bağlı olacağını" deyib.

Xatırladaq ki, SSRİ ilə Suriya Respublikası arasında 1971-ci ildə bağlanmış müqaviləyə əsasən Suriyanın Tartus liman şəhərində SSRİ hərbi dəniz bazası qurub. Daha sonra bu baza ruslarda olub. Ötən il Rusiya və Suriya arasında Tartusdakı hərbi bazanın icarə müddəti 49 il artırılıb. Bu il Rusiya Dövlət Duması bu qərarı təsdiqləyib.

Məlum olduğu kimi, artıq Suriyada İŞİD-in məğlub edildiyi rəsmən bəyan olunub. Doğrudur, hazırda Deyr əz-Zor vilayətinin şərqində - İraq sərhədi və qismən daxili bölgələrdə - İŞİD-in nəzarət etdiyi bölgə qalıb. Bundan başqa, Hama və İdlib vilayətləri arasında, həmçinin Dəməşq yaxınlığında fələstinli qaçqınların yerləşdiyi Yərmuk düşərgəsində, habelə cənubda İsraillə sərhəddə hələ də İŞİD-in nəzarətində olan ərazilər var. İdlibdə və cənub vilayətlərində Rusiyanın terrorçu hesab etdiyi "Fəth əş-Şam" və "Təhrir əş-Şam" kimi bir neçə qruplaşma hələ də qalır. Yəni rusların Suriyada qarşıya qoyulan vəzifəni tamamilə bitirdiyini demək olmaz. Hazırda Suriyada hərbi əməliyyatlar davam edir. Təbii ki, Rusiya rəhbərliyi də bu gerçəyi bilir və münaqişə tam başa çatmadan Suriyadan çıxmanın zərərli olacağının fərqindədir. Digər tərəfdən, aydın məsələdir ki, ruslar Suriyada iki bazanı saxlayacaq. Eyni zamanda S-400 Hava Hücumundan Müdafiə Sistemlərini də çıxarmayacaq. Çünki bu, Əsədi tamamilə zərbə altında qoymaq olardı.

Rusların Suriyadan çıxara biləcəyi qüvvələr çevik əməliyyat birlikləri, hərbi polis və hərbi aviasiyanın və vertolyotların bir qismi olacaq. Bunların çıxarılması isə əslində labüd idi. Çünki artıq uzun müddətdir ki, Rusiya hərbi aviasiyası Saratovdan qalxan "TU-22M" strateji bombardmançıları ilə İŞİD mövqelərini vurur. Çünki nisbətən alçaqdan uçan "SU-24" bombardmançıları daha çox risk daşıyır.

Yəni əslində rusların Suriyadan çəkdikləri qüvvələr çıxarılması labüd olan birləşmələr olacaq. Ümumilikdə 70-dən çox Rusiya təyyarəsinin Suriyada olduğunu nəzərə alsaq, bir xeyli təyyarə geri çəkiləcək. Suriyada əsasən "ovçu" qırıcılar, operativ döyüş vertolyotları qalacaq. Və sapyorlar. Bununla da Rusiya zahirən qüvvələrinin böyük bir qismini, çoxlu sayda quru qüvvələrini çıxaracaq.

Rusiya liderinin xüsusi mərasimlə ordunun Suriyadan çıxarılmasını elan etməsi Rusiyanın Suriyada ikinci Əfqanıstan yaşamadığı, qarşıya qoyduğu vəzifəsini uğurla yerinə yetirərək çəkildiyini göstərmək, yəni qələbə elanı məqsədi daşıyırdı. Bu, eyni zamanda Rusiyada daxili siyasət üçün uğurlu gedişdir. Martda Rusiyada seçkilər keçiriləcək və seçki öncəsi Putin xalqın o qədər də xoşlanmadığı (Suriyada ölən rus əsgərlərdir - K.R.) Suriya kampaniyasını başa çatdırdı. Bütün hallarda dəyişən ciddi bir hal olmayacaq. Əməliyyatlar, hava zərbələri davam edəcək. Ancaq eyni zamanda Rusiya uğurlu bir kampaniyanı bitirərək rəsmən Suriyanı tərk etdiyini bəyan etməklə bir mənada rəqiblərinə meydan oxudu.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 261 (6875) 13 dekabr 2017

**Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan 12 iyul iclasında rayon rəhbərlərinə konkret tapşırıqlar vermişdi. Dövlət başçısı bildirmişdi ki, özəl sərmayənin cəlb edilməsi üçün təkcə mərkəzi icra orqanları məsuliyyət daşımırlar, yerli icra orqanları da daha fəal olmalıdırlar. Xüsusilə bölgələrdə investisiyaları cəlb etmək üçün icra başçıları gərək fəal olsunlar: "Bəzi yerlərdə bu fəallıq, nəticələr var, amma bəzi yerlərdə bu fəallıq yoxdur, biganəlik var. Bəzi hallarda investorlara kömək etmək əvəzinə problemlər yaradılır. Bunlara son qoyulmalıdır. İlin sonunda-dekabr ayında Prezident Administrasiyası və İqtisadiyyat Nazirliyi mənə məlumat, siyahı verməlidir ki, hansı rayonda nə qədər özəl sərmayə cəlb olunub. Hər bir icra başçısının işinə, o cümlədən bu göstəriciyə görə qiymət veriləcək. Bir daha deyirəm ki, dekabrın 15-də mənə geniş arayış təqdim edilsin və ondan sonra həm yüksək qiymət veriləcək, həm də cəza tədbirləri görüləcək".**

# Deputatlar təmsil etdikləri rayonların icra başçıları haqda danışdılar

## Elman Nəsirov: "Hər iki rayonda Çinlə kənd təsərrüfatına investisiya qoyulması üçün ciddi danışıqlar aparılır"





Ölkə prezidenti İlham Əliyevin icra başçılarına qoyduğu vaxt başa çatır. İcra başçılarından kimin imtahandan necə çıxacağı maraqla gözlənir.

Bəs kənd təsərrüfatı rayonlarını təmsil edən deputatlar öz rayonlarında görülən işləri izləyirlərmi? Rayonlarda prezidentin göstərişinin necə yerinə yetirildiyindən məlumatlıdırlarmı?

**52 saylı Quba seçki dairəsinin deputatı Vahid Əhmədov bildirdi ki, Qubanın icra başçısı 10 gün öncə vəzifədən azad olunub. İşdən azad olunan Yaşar Məmmədov işlədiyi müddətdə, o cümlədən son 5-6 ayda elə də ciddi işlər görə bilməmişdi:** "Nə iş yerlərinin açılması, nə investisiya qoyulmasına töhfə vermədi. Ona görə də cənab prezident onu vəzifəsindən azad etdi. Odur ki, Quba ilə əlaqədar məsələ aydındır. Digər rayonlara gəldikdə, rayonların əksəriyyəti kənd təsərrüfatı rayonlarıdır. Kənd təsərrüfatına da dövlət tərəfindən çox böyük diqqət var. Müxtəlif sahələrin inkişafı üçün ciddi dəstək verilir. 2017-ci ili 2016-cı illə müqayisə edəndə kənd təsərrüfatı sahəsində müəyyən artımın olduğunu görürük. Keçən ilə nisbətən iki dəfədən artıq pambıq yığılıb. Amma konkret olaraq hansı rayonda vəziyyətin hazırda necə olduğunu yəqin ki, yaxınlarda biləcəyik. Yəqin ki, cənab prezident yaxınlarda ilin yekunları ilə bağlı iclas keçirəcək və rayonların icra başçılarının fəaliyyətinə qiymət verəcək. Hansı icra başçılarının dəyişilməsi cənab prezidentin səlahiyyətində olan məsələdir".

### Vahid Əhmədov: "Quba ilə əlaqədar məsələ aydındır"

**87 saylı Ağsu-İsmayıllı seçki dairəsinin deputatı Tahir Kərimli öncə bildirdi ki, rayonlarda öz hesabına inkişafa nail olmaq üçün ilk növbədə bir sıra siyasi-inzibati cəhətdən addımlar atılsa yaxşı olar. Yəni yerlərdə bələdiyyələrin rolunu artırmaq, icra hakimiyyətlərini özünə aid olmayan funksiyalardan azad etmək lazımdır:** "Odur ki, bu məsələlər öncə qanunvericilik qaydasında həyata keçirilməlidir. Keçmişdə icra hakimiyyətləri haqqında əsasnamə qəbul olunmuş və ətalətlə o əsasnamənin tələblərinə uyğun fəaliyyət göstərirlər.

Bütün rayonlarda, o cümlədən Ağsu və İsmayıllıda dəyişikliklər adətən mərkəzdən olan təşəbbüslər əsasında həyata keçir. Dövlət İsmayıllıya 7 milyon manat büdcə ayırır və bu rayon artıq dövlətdən dotasiya almır. Amma Ağsu rayonunda 2,5 milyon manata yaxın dotasiya mövcuddur. Çünki hələ yerli sənayenin inkişafı arzuolunan səviyyədə deyil. Amma Ağsuda pambıqçılıq çox ciddi inkişaf elətdirilir, xeyli əkilməmiş torpaq sahələri artıq istehsala cəlb olunub. İsmayıllıda tütünçülük, tinkçilik inkişafdadır. Ağsu yeganə rayonlardandır ki, rayon mərkəzində bütün küçələr asfaltlaşıb. İsmayıllıda da bu iş gedir. Bir sıra sənaye müəssisələri də açılıb. İqtisadi cəhətdən canlanma müşahidə olunur. Həm Ağsuda, həm İsmayıllıda görülən bu işlər insanların məşğulluğunu müəyyən dərəcədə təmin edir. Prezident çox doğru tapşırıq vermişdi və haqlı olaraq bildirib ki, hər şeyi yuxarıdan gözləmək lazım deyil. Yerli icra hakimiyyəti orqanları təşəbbüskar olmalıdır".

**89 saylı Göyçay-Ağdaş seçki dairəsindən deputat seçilən Elman Nəsirov bildirdi ki, prezident çevik siyasət həyata keçirir və haqlı olaraq da icra başçılarından çeviklik tələb edir:** "Cənab prezident şəxsi nümunədir və icra başçılarından da xalqın yanında olmağı, çevikliyi tələb edir. Tələb edir ki, xarici investorların da rayona cəlb olunmasına diqqət ayırsınlar. Mənim təmsil olunduğum Göyçay və Ağdaş rayonlarındakı vəziyyətə gəldikdə, əvvəla, deyim ki, Göyçayın icra başçısı Mehdi Səlimzadə uzaq olmayan zamanda vəzifəyə təyin edilib. Onu yeni icra başçısı hesab etmək olar. Amma Ağdaşın icra başçısı Tofiq müəllim xeyli əvvəl təyin edilib. Hər iki rayon kənd təsərrüfatı rayonlarıdır və bu sahənin inkişafı istiqamətində ciddi işlər görülməkdədir. Mən rayonlarda olarkən hər iki icra başçısının keçirdiyi müşavirələrdə şahidi olmuşam ki, çox ciddi tələblər qoyulur. Bütün ictimaiyyət, imkanlar səfərbər olunub ki, qarşıya qoyulan vəzifələr yerinə yetirilsin. Xarici investorların cəlb olunması ilə bağlı da iş gedir. Məndə olan məlumata görə, hər iki rayonda Çin Xalq Respublikasından kənd təsərrüfatına investisiya qoyulması üçün ciddi danışıqlar aparılır. Nəticələr olacağı gözlənilir. Bir neçə dəfə Çin iş adamlarının rayona getdiyi və danışıqlar apardıqları prosesində mən də iştirak etmişəm. Digər ölkələrin də bu işə cəlb olunması istiqamətində konkret planlar var".

**Etibar SEYİDAĞA**

# "Görək, Ağ Ev Qarabağla bağlı nə edəcək"

## Tofiq Zülfüqarov: "Əks təqdirdə, hərbi əməliyyatların bərpası gündəmə gələ bilər"



**"ABŞ-ın regiona dair son vaxtlar yürütdüyü siyasətin qiymətləndirilməsi göstərir ki, Vaşinqton Cənubi Qafqaza laqeyddir. Bu laqeydlik isə regionun problemlərinin dərinləşməsinə, meydanın Rusiya üçün daha geniş açılmasına gətirib çıxarır". Bunu Amerika Xarici Siyasət Şurasının baş elmi əməkdaşı, professor Stefan Blank "The Hill" qəzetində yazıb (Virtualaz.org).**

Məqalədə bildirilir ki, Rusiya habelə məqsədli şəkildə Ermənistanla Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsini "əbədiləşdirir", bu münaqişədən Ermənistanda hərbi iştirakını gücləndirmək üçün istifadə edir. "Moskva öz silahlı qüvvələrindən təkcə Ermənistanı tabeçilikdə saxlamaq üçün deyil, Azərbaycana və Gürcüstana qarşı təhdidlər üçün də istifadə edir. Moskva habelə əhəmiyyətli ölçüdə qeyri-hərbi qüvvələrindən istifadə edərək Azərbaycan və Gürcüstanın siyasi sistemlərini, suverenliyini təhdid altında saxlayır, Ermənistan üzərində iqtisadi hökmranlığa nail olur" - müəllif daha sonra yazır.

Müəllif xəbərdarlıq edir ki, əgər ABŞ Dağlıq Qarabağ münaqişəsini görməməzlikdən gəlməkdə davam etsə, o zaman bu münaqişə daha qızğın müharibəyə çevriləcək və Rusiyanın Azərbaycana qarşı qəti hərbi hərəkətlərinə gətirib çıxaracaq.

Maraqlıdır ki, vaxtaşırı amerikalı ekspertlər ölkələrinə Azərbaycanla bağlı xəbərdarlıqlar edirlər. Aprel döyüşlərindən sonra bu kimi xəbərdarlıqlar daha intensiv xarakter alıb. Lakin reallıq budur ki, Ağ Evin siyasətində Qarabağ prioritet olaraq yer almır. Tramp administrasiyasının Qarabağ məsələsini prioritetləri sırasında görmədiyi hələ seçki kampaniyasında bəlli idi.

Bu günlərdə məşhur ABŞ politoloqu Pol Qobl daha bir xəbərdarlıq etmişdi. Onun "Türkiyə gözlənilməzliklərlə doludur və Qarabağ məsələsinin həlli üzrə birtərəfli təşəbbüsü Rusiyadan ala bilər" açıqlaması da diqqət cəlb elədi. Lakin digər ekspertdən fərqli olaraq, Pol Qobl demişdi ki, hazırda Rusiyanın Qarabağ münaqişəsinin həllində üstünlüyünün olması ABŞ üçün əlverişlidir, amma Türkiyə həmin üstünlüyü ələ keçirə bilər. Hansı ki, Qobl bir müddət əvvəl "Dağlıq Qarabağ Azərbaycanın nəzarəti altına keçsə, Rusiya öz qoşunlarını bölgəyə yeridə bilər" deməklə Ağ Ev administrasiyasını da ayıq olmağa çağırmışdı.

**"Hamımız görürük ki, Rusiyanın Qarabağ məsələsində ki monopoliyası heç bir nəticə vermir və problemin həllində real irəliləyiş yoxdur. Bu, onu göstərir ki, artıq Rusiyanın, konkret olaraq Lavrovun fəaliyyəti heç bir nəticəyə gətirmədi, bu, sadəcə, ermənilərin vaxt udmaq taktikasına işlədi". Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bu fikirləri "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi.**

**Diplomat digər oyunçulardan danışarkən qeyd etdi ki, ABŞ administrasiyası regional məsələlərin həllində aktiv olmağa çalışır:** "Amma burada Qarabağ məsələsi nə qədər prioritetdir, demək çətindir. Regionda müxtəlif hadisələr baş verir və Qarabağ hələ ki gündəmdə deyil".

**T.Zülfüqarov ABŞ-ın daha çox digər münaqişə bölgələrinə diqqət ayırdığı bir vaxtda Rusiyanın Qarabağ məsələsində hansısa pozitiv rol oynayacağını güman etmədiyini vurğuladı:** "Azərbaycan cəmiyyətində Lavrovun etibarı sıfır səviyyəsindədir. Bu baxımdan təzə oyunçular, təzə fikirlər olmalıdır. Görək ABŞ administrasiyası Qarabağla bağlı nə edəcək. Əks təqdirdə, hərbi əməliyyatların bərpası gündəmə gələ bilər. Fakt budur ki, siyasi fəaliyyət heç bir nəticəyə gətirməyib və hərbi fəallıq bunu əvəzləyə bilər".

**Bununla belə, eks-nazir Türkiyə-Rusiya, Türkiyə-İran, Türkiyə-Rusiya-İran formatında yaxın münasibətlərin davamının da Qarabağ məsələsində hansısa rol oynaya biləcəyini güman edir:** "Təzə oyunçuların iştirakı ilə bəlkə də proses yerindən tərpənə bilər. İstisna etmirəm ki, Putin Türkiyədə bu məsələni müzakirə edə bilər. Çünki Türkiyə tərəfdən Qarabağla bağlı təkliflər hələ ki cavabsız qalıb. Bu, o demək deyil ki, məsələyə nöqtə qoyulub. Sadəcə, bununla bağlı hələ fikir formalaşmayıb. Müsbət hal bundan ibarətdir ki, Türkiyə Qarabağ məsələsini özünün prioritetləri sırasına əlavə edib. Bunun ətrafında Rusiya ilə fikir mübadiləsi davam edir".

**E.PAŞASOY**

YENİ MÜSAVAT
N 261 (6875) 13 dekabr 2017

**Dekabrın 12-də Azərbaycan prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri Xiyabana gələrək i Heydər Əliyevin məzarını ziyarət ediblər.**
**Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri Xiyabana gəliblər.**

# Prezident və ailə üzvləri Heydər Əliyevin məzarını ziyarət etdilər

## Dekabrın 12-də Azərbaycanın keçmiş prezidenti Heydər Əliyevin vəfatının 14-cü ili tam olub





Prezident İlham Əliyev Heydər Əliyevin məzarı önünə əklil qoyub. Azərbaycanın dövlət himni səslənib.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Mərhum prezidentin məzarının ziyarəti mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

AzərTAc xəbər verir ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev əslində sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.



1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.



# Rza Zərrabın məhkəməsində yeni adlar

## Keçmiş polis rəisinin müavini bir çox gizlinlərin üstünü açıb

**ABŞ-ın Nyu-York şəhərində milyarder Rza Zərrab və "Xalqbank" rəhbəri Hakan Atilla ilə bağlı məhkəmə prosesi davam edib. "ABŞ Hakan Atillaya qarşı" məhkəmə prosesinin 10-cü günündə Cohen adlı şahid ifadə verib.**

Digər şahid ABŞ Maliyyə Nazirliyinə bağlı Maliyyə Cinayətləri Agentliyində çalışan Coşua Kirçenbaumun da iş üzrə ifadəsi dinlənilib.

Şahidlik edənlərdən biri isə gülənçi olan, keçmiş polis rəisi köməkçisi Hüseyn Qorxmaz olub. O, Türkiyədən necə qaçdığını və qaçarkən 17 dekabra aid sənədləri necə özü ilə apardığını danışıb. Adı açıqlanmayan digər şahid türkcə ifadə verib. O, Hakkari və İstanbulda Zərrabın şirkətində çalışdığını deyib. Əlavə edib ki, şirkətin çətiri altında üç qrup olub. Üçüncü qrupa sabiq iqtisadiyyat naziri Zəfər Çağlayan və Süleyman Aslan, ikinci qrupa sabiq daxili işlər naziri Müəmmar Gülər, birinci qrupa isə prezident Rəcəb Tayyib Ərdoğan rəhbərlik edib.

Qorxmaz eyni zamanda "Xalqbank"ın keçmiş müdiri Süleyman Aslan barəsində də Türkiyədə aparılan istintaq zamanı "rüşvət, sənədlərdə saxtakarlıq və qara pul yuma" iddialarının ortada olduğunu deyib. O, eyni zamanda "Süleyman Aslanın rüşvət alması ilə bağlı həddən artıq dəlil var" söyləyib.

Zərrab isə məhkəmə ifadəsində bildirib ki, həbsdə olduğu müddətdə bir türmə nəzarətçisinə təxminən 45 min dollar rüşvət verib. O, Türkiyədən digər məsrəfləri ilə birlikdə göndərilən pulla bu rüşvətin də ödəndiyini deyib. "45 min dollar qarşılığında bu nəzarətçi mənə spirtli içki gətirdi. Bir neçə dəfə də onun cib telefonundan istifadə etdim. Həyat yoldaşımla, qızımla görüntülü, Türkiyədəki bir vəkillə, bir dəfə də dayım və bacımla danışdım" demişdi.

Bundan başqa, Zərrab türmədə hər məhkum üçün ayrılan 300 dəqiqəlik telefon danışıq limiti bitəndən sonra digər məhkumların da dəqiqələrini pul qarşılığında aldığını və narkotik maddə olan sintetik marixuana içdiyini də qəbul etmişdi.Sərraf "bunun qanun qarşısında bir cinayət olduğunu bilmirdim. Türmə qaydası ola bilər" deyib.

Bu işin maqazin tərəfi isə R.Zərrabın həyat yoldaşı ilə bağlıdır. Türkiyə mediası onun qızı ilə birlikdə yaşadıqları dənizkənarı villadan köçdüklərini yazıb. İndi başda bəzi siyasətçilər olmaqla, bir çox tanınmışlar o villanın sökülməsini tələb edirlər. "Bizi Amerikada biabır edən adam" deyə haqqında danışdıqları iş adamının villası isə bir çox tikinti xətalarına görə əslində sökülməlidir. İndi hər kəs bu villanın söküləcəyini səbirsizliklə gözləyir.

❑ **Sevinc TELMANQIZI**

# Bu gün Fədayə Laçının məhkəməsidir

## Əliməmməd Nuriyev: "Həbs məhkəmə tərəfindən seçilib, onun ləğvi də yalnız məhkəmə qaydasında mümkündür"

**"Qoca" ləqəbli avtoritet Etibar Məmmədov və kriminal aləmin üzvü olan Əli Ağamini konvoyun müşayiəti altından qaçırmağa kömək etməkdə ittiham edilərək həbs edilən müğənni Fədayə Laçının ev dustaqlığına buraxılması üçün məhkəməyə müraciət edilib.**

Vəkil bildirib ki, vəsatətə dekabrın 13-də Nəsimi Rayon Məhkəməsində hakim Babək Pənahovun sədrliyi ilə baxılacaq.



**Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev bir qədər əvvəl mətbuata açıqlamasında demişdi ki, qətimkan tədbirinin dəyişdirilməsi mümkündür:** "Qətimkan tədbiri cinayət prosesini həyata keçirən orqan tərəfindən öz səlahiyyəti daxilində bunun zəruriliyi sübutlarla təsdiq olunduqda daha ciddi qətimkan tədbirləri seçilə bilər. Cinayət işi üzrə şübhəli və ya təqsirləndirilən şəxsin lazımi qaydada hökmün icrasının təmin edilməsinə nail olmaq mümkün olduğu halda, yüngül qətimkan tədbiri ilə əvəz edilə bilər. Hazırkı şəraitdə Fədayə Laçın barəsində həbs-qətimkan tədbiri seçilib. Bu, ciddi qətimkan tədbiri hesab olunur. Qətimkan tədbirinin təsdiqinə zərurət aradan qalxdıqda cinayət prosesini həyata keçirən orqan öz səlahiyyəti çərçivəsində onu ləğv edə bilər. Nəzərə alsaq ki, həbs-qətimkan tədbiri məhkəmə tərəfindən seçilib, onun ləğvi də yalnız məhkəmə qaydasında mümkündür. Qətimkan tədbirinin dəyişdirilməsi, yaxud zaminliyə verilməsi ilə bağlı qərar verilə bilər. Bu da yalnız məhkəmə qərarı ilə. Zaminliyə verilmə iki cür olur: şəxslərin zaminliyinə verilmə və təşkilatın zaminliyinə verilmə. İndiki halda Fədayə Laçın yalnız məhkəmə qərarı ilə şəxslərin zaminliyinə verilə bilər".

**Hüquqşünas bildirib ki, zamin durmaq istəyən şəxslər müvafiq qaydada cinayət işinə prosessual rəhbərliyi həyata keçirən prokurora müraciət edə bilər:** "Bu halda prokuror tərəfindən də məhkəməyə müraciəti əsasında qətimkan tədbiri dəyişdirilə bilər. Yaxud vəkil məhkəmə qarşısında vəsatət qaldıra bilər. Amma hər şeydən əvvəl məhkəmə tərəfindən zaminliyin mümkünlüyü haqda qərar olmalıdır. Bütövlükdə Fədayə xanımın zaminliyə verilib-verilməməsi ilə bağlı məsələ həm cinayət işinin istintaqını aparan müstəntiq və həm də prokuror tərəfindən qaldırıla bilər. Bu baş verəcək, yoxsa yox, söyləmək çətindir. Qətimkan tədbirinin dəyişdirilməsi zamanı təqsirləndirilən şəxsə 2 nəfərdən 5 nəfərə qədər şəxs zamin dura bilər. Şəxsin gələcəkdə istintaqdan qaçıb gizlənmə ehtimalı və istəyi yoxdursa, qətimkan tədbirinin dəyişdirilməsi mümkün sayılır. Zaminliyə buraxılma zamanı şəxsin məhkumluğu ləğv edilmir, istintaq davam edir. Bunun üçün ibtidai istintaqı həyata keçirən subyektlərin fikirləri və rəyləri əsasdır. Amma məhkəmə bütövlükdə məsələyə baxıb qərar verə bilər. Nə qədər ki, Fədayə Laçın haqda həbs-qətimkan tədbiri seçilib, onun dəyişdirilməsi yalnız məhkəmə qaydasında mümkündür".

Baş Prokurorluğun məlumatına görə, oktyabrın 23-də Bakıda məhbusların qaçması faktı ilə bağlı başlanan cinayət işi üzrə F.Məmmədova təqsirləndirilən şəxs qismində cəlb olunaraq Nəsimi Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib. Onun barəsində Cinayət Məcəlləsinin 304.2.1-ci (mühafizə altında olan şəxsə qaçmağa yardım etmə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə cinayət işi başlanılıb. Nəsimi Rayon Məhkəməsinin qərarı ilə F.Laçın barəsində üç ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Ə.Ağami Şirvan şəhərində həbs edilib, "Qoca"nın saxlanılması üçün keçirilən əməliyyat zamanı o, müqavimət göstərdiyi üçün öldürülərək zərərsizləşdirilib.

❑ **E.HÜSEYNOV**

# Yol qəzalarının müharibə kimi xronikası: bir həftəyə 27 ölü...

**Azərbaycanda son günlər ölümlə nəticələnən yol-qəza hadisələrinin sayı kəskin şəkildə artıb. Daxili İşlər Nazirliyinin istirahət günlərinə açıqladığı rəsmi statistikaya görə, respublika ərazisində 17 qəza hadisəsi qeydə alınıb. İki gündə 12 nəfər ölüb, 17 nəfər yaralanıb.**

Virtualaz.org xəbər verir ki, təkcə mətbuatda işıqlandırılan məlumatlara görə, ötən həftə yollarda 40-dan çox qəza hadisəsi baş verib. Nəticədə 27 nəfər ölüb, 53 nəfər xəsarət alıb.

Avtomobillərin toqquşması ilə baş verən yol qəzaları ilə bərabər, Bakıda və regionlarda az qala hər gün piyadaların vurulması hadisələri də qeydə alınır. İdarənin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyevin virtualaz.org-a bildirdiyinə görə, belə hadisələr əksər hallarda səkidə və ya piyada keçidində deyil, yolun hərəkət hissəsində baş verir: "Piyadaların vurulmasında ən çox piyadaların özlərinin təqsiri var. Əsas piyada qəzaları piyadaların yolların onlar üçün təyin olunmayan yerlərindən keçməsi ilə bağlıdır. Sözsüz ki, yolların işıqlandırılmaması da burada müəyyən qədər rol oynayır".

**K. Əliyev deyir ki, piyada vurulmasının qarşısının alınması üçün ən çox təbliğat-maarifləndirmə işlərinə üstünlük verilir. Amma bununla belə, piyadalar həm də inzibati məsuliyyətə də cəlb olunurlar:** "Çalışırıq ki, piyadalaramız qayda-qanunlara riayət eləsinlər. Çünki öz təhlükəsizlikləri birinci növbədə özləri təmin etməlidirlər. Yolun onlar üçün müəyyən olunmamış yerlərindən keçmə birinci növbədə onlar üçün təhlükəlidir. Yol polisi tərəfindən maarifləndirmə tədbirləri ilə yanaşı inzibati tədbirlər də görülür. Qaydaları pozmağa görə il ərzində 40 min piyada inzibati məsuliyyətə cəlb olunub. Amma ailələrdə də bu məsələ diqqətdə saxlanılmalıdır. Evdən çıxana "diqqətli o", "ehtiyatlı ol", "keçiddən keç" deyilməlidir ki, belə qəzalar baş verməsin", - deyə şöbə rəisi bildirir.

Bu ilin 9 ayının yol qəzaları ilə bağlı statistikasına görə, Azərbaycanda 1334 yol-nəqliyyat hadisəsi qeydə alınıb, nəticədə 554 nəfər ölüb, 1260 nəfər xəsarət alıb. Bu hadisələrdən 302-si piyadaların vurulması ilə bağlıdır.



# Ədəbiyyat dərsliyi haqqında

Zamin HACI
zaminhaci@gmail.com

Bir vəhhabi-anekdot var, təzəlikcə yadıma düşübdür. Anekdotu belə adlandırmağımın dinlə heç bir əlaqəsi yoxdur, sadəcə, hamının bildiyi, çox köhnə, "yaşlı" anekdotları bu cəhətinə görə "saqqallı" adlandırırlar. Bizdə isə saqqal avtomatik vəhhabilərlə bağlanır, mən də fikirləşdim filologiya elmimizə yeni terminlə töhfə verim. Bəs necə, bu saat respublikamızda dinc quruculuq işləri yüksək sürətlə davam edir, hər bir kəs də öz sahəsində çalışıb yeniliklər etməli, iqtisadiyyatımızın dirçəldilməsinə çalışmalıdır. "Şəfəq" kolxozunun sağıcısı Fatma xala hər inəkdən 1000 litr süd sağır, mən isə hər ay 40 köşə yazmağı qarşıma məqsəd qoymuşam.

Nəsə çox uzaq getdik, elə getmişkən aktual dini düşüncələrimi də yazım. Həmin vəhhabilər haqda bir kitab oxuyurdum *(Cəfər Sübhani, "Vəhhabi məzhəbi")*, kitab belə baxanda pis deyildi, xeyli söhbətləri xırdalayıbdır. Misal üçün, oxuyanda son illərin İŞİD söhbətlərini, bunlar niyə belə qol-qanad açmışdılar - təxminən başa düşürsən. Ancaq başqa yöndən təəssüf edirsən ki, dünya əhalisinin 1 milyard yarımını 1400 ildir düşündürən problemlərdən biri budur ki, qəbri ziyarət eləmək haramdır, məkruhdur, yoxsa qəbuldur. O cümlədən, insanı hansısa tikilinin içində basdırsan, bu tikili qalmalıdırmı, yox əgər adamı basdırıb sonra üstündə bina qayırsan bu, dinə uyğundurmu.

Nəhayət anekdot... Deməli, bir adam sünnət dəlləyi işləyirmiş, ofisinin qabağından isə saat şəkli asıbmış. Bir başqası bundan soruşur ki, sən niyə saat şəkli asmısan, bəyəm saatsazsan? Dəllək deyir: "Yaxşı, sən burdan nə şəkli asmağımı istəyirdin ki?" İndi də anekdotu xatırlamaq səbəbini yazım.

Bizim orta ümumtəhsil məktəbləri üçün 9-cu sinif Ədəbiyyat dərsliyinin üz qabığında "Nizami" metrosunun içindəki mozaik-rəsmlərdən birinin təsvirini veriblər. *(Rəsmin müəllifi Mikayıl Abdullayev)*. Həmin rəsm Nizaminin "İsgəndərnamə" poemasından Nüşabə ilə İsgəndərin görüşünü göstərir. Burada haşiyə çıxım ki, Nizaminin o məsələdə fantaziyasına güc verdiyi tarix elminə məlumdur, çünki İsgəndər Şimali Azərbaycandan və Bərdədən heç keçməyibdir. Ancaq dərdimiz bu deyil. Məsələ ondadır ki, həmin bu 9-cu sinif ədəbiyyat dərsliyi 20-ci əsr Azərbaycan ədəbiyyatına həsr olunub. Bunun üz qabığına o rəsmi vuranlar görəsən nəyi fikirləşiblər? Şagirdlərə hansı mesajı veriblər?

Dərsliyin içərisi də yumşaq yazsam, karikaturadır. Örnək üçün, sovet şairi Süleyman Rüstəmin "Təbrizim" şeirini veriblər. Mən 1989-cu ildə Narxoz-a imtahan verəndə Rüstəmin Cənub şeirləri temasında inşa yazmışam. Elə bilirdim o istedadsız şeirlər, poeziyaya dəxli olmayan söz yığını elə SSRİ-də qalıbdır. Sən demə, indiyə qədər sürüyüb gətiriblər. Məqsəd nədir? Məqsəd şagirdlərdə Güney Azərbaycan sevgisi oyatmaqdırsa, bunu yüzlərlə başqa gözəl şeirlə eləmək olmazdımı? Yoxsa biz burda "Arxların kənarında söyüdlər, Söyüdlərin kölgəsində igidlər..." kimi axmaq misraları əzbərləyəndə İran dağılır? Kölgədə də igid olar? Cəhənnəm, deyək igid döyüşdən yorğun gəlib, yıxılıb kölgəyə... Barı bunu çinarın, palıdın, qozun-zadın altına uzat da, türkün məsəli.

O cümlədən, kitaba heç dəxli olmadan Ernest Heminqueyin "Qoca və dəniz" əsərini soxublar. Bu, dərslikdə yeganə xarici ədəbiyyatdır. Əgər Heminquey bilsəydi bir gün onu Qılman İlkin, Mirvarid Dilbazi, Elçin və Mirzə İbrahimovla eyni dərslikdə keçəcəklər, yəqin daha tez intihar edərdi, kitablarını da yandırardı ki, bizim dərslik qayıranların əlinə keçməsin.

Dərsliyin bir maraqlı cəhəti də orada Rəsul Rza, Nigar Rəfibəyli və Anarın eyni zamanda tədris edilməsidir. Necə deyərlər, ata, ana və müqəddəs ruh eşqinə, amin. Ancaq bir tənqidi detalı yazaq ki, dərslikdə Günel Anarqızının əsərlərinə rast gəlinmir. Ümid edirik, gələn nəşrdə bu çatışmazlıq aradan qalxar.

# Müsəlman ölkələri bu gün Qüdslə bağlı qərar verir-gözlər İstanbulda...

## Deputat: "Azərbaycanın toplantıda iştirakı və İslam həmrəyliyi nümayiş etdirməsi ABŞ və İsrail əleyhinə çıxmaq demək deyil"



**Bu gün İstanbulda Türkiyənin təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) növbədənkənar zirvə toplantısı keçiriləcək. Quruma üzv ölkələrin rəhbərləri Amerika prezidenti Donald Trampın Qüdsü İsrailin paytaxtı kimi tanımasını və səfirliyi bu şəhərə köçürməklə bağlı qərarını müzakirə edəcəklər. Azərbaycan prezidenti də tədbirdə iştirak edəcək.**

Trampın qərarına İƏT ölkələrinin indiyə qədərki qərarını nəzərə alsaq, toplantıda Amerika və İsrail əleyhinə ciddi qərarların qəbul ediləcəyi, bəyanatların, açıqlamaların veriləcəyi indidən məlumdur. Qüdsün paytaxt kimi tanınmasına sərt mövqe sərgiləyən Azərbaycanın toplantıdakı mövqeyi də demək olar dəqiqləşib. Bir müsəlman ölkəsi kimi Azərbaycan veriləcək qərarın və bəyanatın lehinə olacaq.

Bunun da Azərbaycan-Amerika, Azərbaycan-İsrail əlaqələrinə soyuqluq gətirə biləcəyi ehtimalları indidən yüksək görünür. Ekspertlərin də məsələ ilə bağlı mövqeləri demək olar üst-üstə düşür. Rəsmi Bakının silah aldığı əsas ölkələrdən biri olan İsraillə əlaqələrin soyuqlaşacağı təqdirdə, bundan hər iki tərəfin zərər görə biləcəyi vurğulanır. Amerika ilə də əlaqələrin orta olduğunu düşünsək, bunun bir az soyumasının ciddi problemlərə yol açacağı bildirilir. Trampın prezidentliyə gəlişindən sonra onun digər ölkələrin daxili işlərinə qarışmayacağını düşünən və buna çox sevinən Azərbaycan tərəfi sonradan onu vədinə əməl etmədiyinə görə sərt şəkildə qınamağa başladı. Bu gün də Trampla bağlı rəsmi Bakının mövqeyi belədir.

Sadaladığımız amilləri nəzərə alsaq, Azərbaycanın İƏT-in bugünkü toplantısında ciddi seçim qarşısında qalacağı açıq şəkildə görünür. Veriləcək istənilən qərarın ağırlığını hiss etməmək mümkün deyil. Amma istənilən halda qəbul olunacaq qərara kiçik bir müsəlman ölkəsi kimi Azərbaycan imza atmalıdır.

**Deputat, politoloq Elman Nəsirov bildirdi ki, Azərbaycanın bu toplantıda iştirakı və İslam həmrəyliyi nümayiş etdirməsi Amerika və İsrail əleyhinə çıxmaq anlamına gəlməməlidir:** "Trampın məlum mövqeyi Amerikanın öz müttəfiqləri arasında çox böyük ziddiyyətlərlə qarşılanıb. ABŞ-ın NATO-dakı müttəfiqləri Almaniya, İtaliya, Fransa, Roma papası və digərləri bu qərarın əleyhinə mövqe ifadə ediblər. Xüsusilə bu qərar Avropa ölkələrində sabitliyə, əmin-amanlığa, sülh prosesinə çox ciddi bir zərbə kimi qiymətləndirilir. Bu gün Avropa müsəlmanlarının etiraz dalğası başlayıb. Bu da Avropa ölkələrinin daxilində sabitliyin qorunmasına ciddi maneədir. Trampın dəfələrlə belə etiraz doğuran qərarlarının şahidi olmuşuq. Sonradan o, belə qərarlarından imtina etmək məcburiyyətində qalıb. Vaxtilə müsəlman ölkələrindən Amerikaya gələnlərə ciddi maneələr yaradan qərar vermişdi, lakin sonradan o qərar ləğv olunmuşdu. Bu nöqteyi-nəzərdən Qüdsün İsrailin paytaxtı elan olunması və Amerika səfirinin Tel-Əvivdən Qüdsə keçirilməsi ilə bağlı qərar ilk növbədə, Amerikanın milli maraqlarına zidd bir məsələdir. Çünki bu qərar əsasında ABŞ-ın regiondakı müsəlman ölkələri ilə münasibətləri korlanır, hətta müttəfiqi olan müsəlman ölkələri ilə belə münasibətlərə ciddi kölgə salır. Bu da Amerikanın dövlət maraqlarına çox ziddir. İsrailə gəlincə, bu qərar müsəlman ölkələrinin bu dövlətin üzərinə qalxması anlamına gəlir ki, bu İsrailə lazımdır? Müsəlman aləminin bu, məsələdə birlik nümayiş etdirməsi, İsrail əleyhinə şüarlar səsləndirməsi İsrailə lazım deyil. Xüsusilə bu məsələdən beynəlxalq terrorçular maksimum yararlanmağa çalışır, özlərini milli qəhrəman kimi təqdim etmək istəyirlər. Bu, Amerika və İsrailə lazım deyil. 60 ildən çoxdur ki, davam edən İsrail-Fələstin münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurası çoxsaylı qətnamələr qəbul edib. Həmin qətnamələrin heç birisində Qüds İsrail dövlətinin paytaxtı kimi nəzərdə tutulmur. Belə olan təqdirdə Trampın bu qərarı ilk növbədə, beynəlxalq hüquqa ziddir, BMT-nin məlum qətnamələrinin ümumi ruhunun əleyhinədir. Azərbaycanın bu məsələlərdəki mövqeyi beynəlxalq hüquqa söykənir. Azərbaycan bu münaqişənin sülh yolu ilə həllini istəyir, gərginliyin BMT-nin qətnamələri çərçivəsində həllini istəyir. Bu baxımdan Azərbaycanın bu məsələ ilə bağlı məlum mövqeyini hesab edirəm ki, Amerika və İsraildə düzgün qiymətləndirəcəklər. Ölkə başçısı müstəqil siyasət yeridir, Azərbaycanın yeritdiyi bu xətt heç bir dövlət və beynəlxalq siyasi dairələrin təzyiqi altında deyil. Biz müstəqil xarici siyasət yürüdürük. Azərbaycan beynəlxalq hüquqa xidmət edən dövlətdir. Davranışlarımız beynəlxalq hüquq sistemi çərçivəsindədir. Həmin beynəlxalq hüquqda isə Qüds İsrailin paytaxtı kimi nəzərdə tutulmayıb. Bu baxımdan Azərbaycanın bu mövqeyi düzgün qəbul olunmalıdır. Rəsmi Bakı həm Amerika, həm də İsraillə yaxın tərəfdaşlıq münasibətlərini qoruyub saxlayır. Əgər BMT Təhlükəsizlik Şurasının qətnamələrində Qüds İsrailin paytaxtı elan olunsaydı, beynəlxalq birlik bu qərarı dəstəkləsəydi, o zaman Azərbaycan bu məsələyə müsbət, loyal münasibət bildirərdi. Amma ortada belə bir şey yoxdur. Ona görə Azərbaycanın mövqeyi ədalətlidir. Amerika və İsrailin bu mövqedən inciməyə əsasları yoxdur".

**Politoloq kiçik müsəlman ölkəsi kimi Azərbaycanın bu qərardan sonra hər hansı bir təhlükə ilə üzləşib-üzləşməyəcəyindən də söz açdı:** "Bu bizə təhlükələr yaratmır. Doğrudur, Azərbaycan müsəlman aləmində kiçik bir ölkədir. Amma bu yerdə cənab prezidentdən bir sitat gətirmək istəyirəm. Yeri gəlmişkən, cənab prezident ölkəmizlə bağlı kiçik sözünü xoşlamır. Ölkə başçısı dəfələrlə söyləyib ki, Azərbaycan beynəlxalq aləmdə elə də böyük dövlət deyil, lakin bizim sözümüzün mənası və çəkisi böyükdür. Dövlətin ölçülərinə, əhalinin sayına görə Azərbaycan regionda İran və digər dövlətlərdən geri qala bilər. Lakin Azərbaycan bu gün beynəlxalq aləmdə elə layihələr və təşəbbüslərlə çıxış edir ki, sözümüzün mənası və çəkisi böyük olur. Azərbaycan dünyada İslam həmrəyliyinə çox böyük töhfələr verir. Ölkəmizdə İslam Həmrəyliyi oyunları keçirildi, paytaxtımızda müsəlman ölkələrinin idmançıları bir-birilərinin əlini sıxdılar. Bunun çox böyük bir mənası var idi ki, müsəlman ölkələrinin təmsilçiləri bir-birilərinin əlini sıxmalı, bir-birilərinə hörmətlə yanaşmalıdır, necə ki, bunu idmançılar edir. Bizim üçün əsas olan odur ki, Azərbaycanın atdığı addımların kiminsə diktəsi ilə atılmadığını hər kəs bilir. Prezident tərəfindən yürüdülən siyasətin dövlətimizə və xalqımıza xidmət etdiyini hər kəs yaxşı anlayır. Əgər belə olmasaydı, haqqında danışdığımız məsələ ilə bağlı belə bizə təzyiqlər göstərilərdi. Vaxtilə biz Krım məsələsində Ukraynanın ərazi bütövlüyünü müdafiə edən dövlətik. O zaman bu o demək deyildi ki, biz Rusiya əleyhinəyik. Beynəlxalq hüququn ərazi bütövlüyü prinsipini müdafiə edirik. Əgər o vaxt Ukrayna Rusiyaya qarşı eyni addımı atsaydı, Azərbaycan Kremli müdafiə edərdi. Kim ərazi bütövlüyünü pozursa, biz onunla eyni mövqedə ola bilmərik. Biz hər kəsi beynəlxalq hüququn ərazi bütövlüyü ilə bağlı normalarına əməl etməyə çağırırıq. Bu baxımdan bir daha bildirirəm ki, bu gün Qüdslə bağlı mövqeyimiz Amerika və İsrail əleyhinə deyil".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 261 (6875) 13 dekabr 2017

# Bakıda müsəlman həmrəyliyi səsləri - Şeyx fətva verdi, islamçılar hərəkətə gəldilər

## ABŞ səfirliyi qarşısında dindar qadınlar da etiraz aksiyası keçirdilər...

**ABŞ prezidenti Donald Trampın Qüdsü İsrailin paytaxtı olaraq tanımasına dünyada reaksiyalar davam edir. Azərbaycan da ABŞ prezidentinin qərarını pisləyib. Azərbaycan və Türkiyə prezidentləri arasında telefon danışığı zamanı prezidentlər ABŞ prezidenti Donald Trampın Qüdsün İsrail dövlətinin paytaxtı kimi tanınması və səfirliyin bu şəhərə köçürülməsi ilə bağlı qərarının çox yanlış olduğunu vurğulayaraq bildiriblər ki, bu addımlar beynəlxalq hüquqa zidd və Yaxın Şərqdə təhlükəli fəsadlara gətirib çıxara bilər.**




Xarici İşlər Nazirliyi isə bəyan edib ki, Azərbaycan İsrail-Fələstin münaqişəsinin sülh yolu ilə həllini dəstəkləyir. Ölkəmiz Şərqi Qüdsün Fələstin dövlətinin paytaxtı olmaqla məsələnin iki dövlət əsasında həllinin tərəfdarıdır.

Dekabrın 12-də isə Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ABŞ prezidentinin Qüds qərarı ilə bağlı açıqlama yayıb. Bəyanatda qeyd olunur ki, səmavi dinlər üçün müqəddəs sayılan və ilk qibləgahımız olan Qüds ətrafında son günlər baş verənlər, təbii ki, hər bir mömin, inanclı insan üçün həssasiyyət kəsb edir. **Sitat:** "Qüdsün Uca Yaradanın hökmünə və iradəsinə uyğun olaraq, müsəlmanlar və əhli-Kitab üçün özəl məqam olaraq qorunub saxlanılması, sülh, barış məkanı olması vacibdir. Dini hisslərin siyasi məqsədlər üçün sui-istifadəsi yolverilməzdir".

**Bəyanatda həmçinin qeyd olunur ki, dünyada baş verən dözümsüzlük, milli, dini zəmində qarşıdurma, ksenofobiya, islamofobiya, terror, ekstremizm hallarının səngimədiyi bir dönəmdə müqəddəs dəyər olan insan həyatının qorunub saxlanılması, sülh və sabitliyin bərqərarı yönündə addımların atılması zəruridir:** "Milyonlarla insanın həyatı bahasına başa gələcək siyasi qərarlar verilərkən onların olduqca təhlükəli fəsadlar, mümkün qarşıdurma və ədavət törətmə ehtimalı göz önünə alınmalı, nəzərdən qaçırılmamalıdır ki, insanlar arasında milli, dini zəmində nifrət və qarşıdurma səbəbindən bəşəriyyət sonu görünməyən bir uçuruma gedə bilər. Birmənalı şəkildə bildiririk ki, Qüdsün paytaxt elan edilməsi haqqında təktərəfli qaydada verilmiş qərar yolverilməzdir. Siyasi məqsəd, niyyətlər naminə Qüdslə bağlı qərar verilməsi qeyri-məqbuldur".

**QMİ Qüdsün İsrail paytaxtı kimi tanınması qərarını kəskin şəkildə pisləyir və BMT-nin Qüdslə bağlı qərarının icrasına çağırır:** "Yaxın Şərqin bu həssas bölgəsində sülh və əmniyyətin bərqərar olmasına böyük əngəl olan, təhlükəsizliyi təhdid edən, bölgədə gərginliyi artıran və dünya ictimaiyyəti tərəfindən kəskin şəkildə qınanılan bu qərara Qafqaz müsəlmanları adından qətiyyətlə etiraz edirik. Milyonlarla dindarın iradəsini ifadə edərək, 1967-ci ildə BMT Təhlükəsizlik Şurasının Fələstin xalqının hüquqlarını təsbit edən Qüdslə bağlı qətnaməsinin yerinə yetirilməsində israr edirik. Uca Yaradanımızın bizlərə buyurduğu kimi: "Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!" (Maidə, 8).

Qeyd edək ki, ABŞ-ın Bakıdakı səfirliyi qarşısında da etiraz aksiyaları keçirilib. Dekabrın 9-da Bakıda bir qrup dindar Trampın Qüds qərarına etiraz olaraq səfirlik önünə gəlib. Etirazçılar əllərində "Qüds və Qarabağa azadlıq!", "Qüds müsəlmanların ilk qibləgahıdır!", "Terrorizmi dayandırın!" şüarları yazılmış plakatlar daşıyıb.

Səfirlik qarşısında daha bir Qüds aksiyasını qadınlar keçirib. Dekabrın 11-də bir qrup dindar qadın Amerikanın Bakıdakı səfirliyi qarşısında ABŞ prezidentinin Qüdsü İsrailin paytaxtı kimi tanımasına etiraz edib. Aksiya Azərbaycan İslam Partiyasının Qadınlar Şurası və Əsgər Anaları İctimai Birliyi tərəfindən təşkil edilib. Aksiyanın şahidi Arzu Abdullanın "Turan"a verdiyi məlumata görə, 20 dəqiqəyə yaxın davam edən aksiyada 20 qadın iştirak edib. İştirakçılar "Terrorizmə son!", "Qarabağ və Qüds müsəlman torpaqlarıdır!" şüarları yazılan plakatlar qaldırıblar. Onlar Trampın addımlarını pisləyərək, Fələstin xalqı ilə həmrəyliklərini bildiriblər. Polis aksiyaya müdaxilə etməyib. Səfirlik əməkdaşlarından heç kim aksiya iştirakçılarının qarşısına çıxmayıb.

Xatırladaq ki, dekabrın 13-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçılarının Qüds mövzusunda toplantısı olacaq. Azərbaycan prezidentinin də bu toplantıda iştirakı gözlənilir. Gözlənilir ki, müsəlman ölkələri liderləri Qüds məsələsi ilə bağlı orta mövqe sərgiləmək, Trampın qərarının icrası prosesini dayandırmaqla bağlı ortaq fəaliyyət planı qəbul edəcəklər.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# "Trampa görə amerikalıların qanı axır"- ABŞ-dakı partlayışın pərdəarxası

## Ekspertlər bildirir ki, Nyu-Yorkdakı terrorun Qüdslə bağlılığı yoxdur, amma...

**Dekabrın 11-də Banqladeş vətəndaşı Akayed Ullah Nyu-Yorkda partlayış törədib, nəticədə 4 nəfər yaralanıb. Hadisəni törədən 27 yaşlı banqladeşli qanuni əsaslarla ABŞ-da yaşayır. O, ifadəsində ABŞ-ın Suriya və İraqdakı fəaliyyətini pisləyib, cinayəti qisas məqsədilə həyata keçirdiyini bildirib. Lakin hadisədə İŞİD-in də əlinin olduğu bildirilir və partlayış terror adlandırılır.**

Hadisədən sonra jurnalistlərə açıqlama verən Nyu-York meri Bill de Blasio bildirib ki, bu, uğursuz terror cəhdidir: "Onların bizi narahat etməsinə icazə verməyəcəyik. Bu, onların yeganə məqsədidir".

Məsələ ilə bağlı ABŞ prezidenti Donald Tramp da fikir bildirib. Prezident yenə də miqrant məsələsini qabardıb. Tramp miqrantları qınasa da, əksər ekspertlər bu hadisədə onun Qüdslə bağlı verdiyi qərarın da önəmli rol oynadığını bildirirlər.

**Teleqraf.com saytına politoloq Zərdüşt Əlizadə bu hadisədən 3 gün öncə verdiyi müsahibəsində maraqlı fikir bildirib. O söyləyib ki, Tramp Qüds qərarı ilə müsəlman dünyasını, beynəlxalq hüquqi sistemi və dünyada ədalətin düşməni olduğunu ortaya qoydu:** "ABŞ dünyada özünə elə yer edib ki, heç kəslə hesablaşmır. Nə BMT-ni, nə beynəlxalq hüququ, nə qanunları sayır, nə də insaf, Allah, Budda, xristianlıqla hesablaşır. Özlərini elə vəziyyətə gətiriblər ki, əllərində güc, pul, qüvvə, dünyaya nəzarət və s. var. Bu hadisəyə baxıb bir söz deyə bilərəm: bundan sonra terrorçular tərəfindən öldürülən hər bir amerikalının qanı Trampın üzərinə düşəcək. Çünki bu qərar beynəlxalq miqyasda terrorizm üçün əlavə stimul yaradacaq".



**"Yeni Müsavat"a danışan təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev bildirib ki, bu hadisəni qətiyyən Qüdslə bağlı bəyanata bağlamaq olmaz:** "ABŞ prezidentləri bundan əvvəl də belə bir qərar qəbul etmişdilər. Sadəcə olaraq, onun ratifikasıyasını dəfələrlə 6 aylıq müddətlərlə uzatmışdılar ki, qarışıqlıq yaranmasın. Partlayış törədilləndən sonra bunu üzərinə götürənlər "Taliban", İŞİD və digər terror qruplaşmaları olur. Qüds məsələsində isə əsas fiqurlar şiə yönümlü təşkilatlardır. Buna görə də onların bir-biriləri ilə əlaqəsinin olması istisnadır. Hər yerdə baş verən partlayışları müsəlmanların boynuna yıxmaqla Qüdslə əlaqələndirmək olmaz. Düşünürəm ki, qarşıdan gələn Milad bayramı ilə bağlı hər yerdə təhlükəsizliyin gücləndirilməsinə baxmayaraq, bu kimi hadisələr təkrarlana bilər. Ona görə də hadisənin Qüdslə əlaqəli olmasını hər tərəfli istisna edirəm".

**Politoloq Elxan Şahinoğlu da qəzetimizə açıqlamasında durumu dəyərləndirərək bildirib ki, bu gün Avropanın müxtəlif ölkələrində ard-arda terror hadisələri baş verir:** "Amerikada 11 sentyabr hadisəsi baş verən zaman ABŞ-ın xüsusi fəallığı da yox idi. ABŞ məhz bu hadisələrdən sonra Əfqanıstan və İraqa öz ordusunu yeritdi. Terror elə bir anlayışdır ki, onu hər hansı bir hadisə ilə də əlaqələndirmək doğru deyil. Düzdür, İslam dünyasında Trampın qərarına qarşı müqavimət var, etiraz səsləri ucalır və terror da fəallaşa bilər. Nyu-Yorkdakı son hadisəni götürsək, burada ölümlər olmadı. Ancaq bu o demək deyil ki, terrorların ardı gəlməyəcək. 11 sentyabr hadisəsindən sonra Amerika nəzarəti gücləndirib. Ona görə də terrorçulara okeanın o biri tayında olan ABŞ-dansa, Avropada terror törətmək daha rahatdır. Amerikada böyük terror qruplaşması yaratmaq da çətindir. Tək-tük insanlar özləri əldəqayırma partlayıcılar hazırlayaraq, metroda və digər yerlərdə partlayışlar törətməyə çalışa bilərlər. Ancaq bunu da Trampın qərarına bağlamıram. Çünki Tramp özü müşavirləri ilə belə bir qərara gələndə bilirdi ki, bu, ciddi rezonans doğuracaq. Türkiyədə böyük bir toplantı planlaşdırılır. Ancaq buna baxmayaraq, söyləyim ki, İslam aləminin özündə də yekdillik yoxdur. Məzhəb savaşları gedir, maraq qarşıdurması var. Bəli, bütün İslam ölkələri Trampın qətnaməsini pislədilər. Ancaq bu o demək deyil ki, pisləməklə yanaşı hamısı həmrəylik nümayiş etdirib, fəaliyyətə başlayacaqlar. Bunu gözləmirəm. İstanbulda da ola bilər ki, ümumi fikirlər səslənsin. Ancaq bir müddət sonra Trampın qətnaməsi unudulacaq. Çünki bu, Amerikanı bağlayan bir qətnamədir. Doğrudur, super dövlətdir və qərarı da hər yerdə müzakirə olunur. Terrorçulara gəldikdə isə bu günlərdə Rusiya prezidenti də Suriyada olan zaman açıq mesaj verdi ki, artıq Suriyada terror bitib. Ancaq bu o demək deyil ki, terrorçular bütün dünyaya səpələnməyiblər. Yaxud da onların Amerikada, Avropada ardıcılları yoxdur. Hadisələr yenə də olacaq, terrorlar baş verəcək. Ancaq bu, sırf olaraq bir hadisə ilə bağlı olmayacaq. Bir ay sonra Trampın qətnaməsi arxa plana keçəcək, terror isə davam edəcək. Miqyası böyük də, kiçik də ola bilər. Yeni Tramp bu qərara gəlməsəydi də, terrorlar, qətliamlar baş verəcəkdi".

❑ **Əli RAİS**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 261 (6875) 13 dekabr 2017

# Bakı metrosunda kütləvi ixtisarlar

## Nəsimi Paşayev: "İki qazmaçı varsa, biri çıxarılır, biri isə qalır"

**"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətində işçilərin kütləvi ixtisarı ilə bağlı xəbərlər yayılıb. Metropolitenin işdən çıxarılan əməkdaşları hətta dekabrın 9-da qurumun qarşısına toplaşaraq, etiraz aksiyası da keçiriblər. Contact.az saytı yazıb ki, narazı işçilərin sözlərinə görə, "Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynovun əmrinə əsasən maliyyə çatışmazlığı səbəbindən 500-ə yaxın əməkdaş ixtisar olunub. Etirazçıların dediklərinə görə, metropoliten rəhbərliyi ixtisar zamanı işçilərin peşəkarlığını və ailə vəziyyətini nəzərə almayıb, yerliçiliyə yol verib. İşçilər pozulmuş hüquqlarının bərpasını tələb edir və digər instansiyalara müraciət etmək niyyətindədir.**



Aksiyaçılar onu da qeyd ediblər ki, əmək müqaviləsində müqavilənin "qarşılıqlı razılaşma şəklində pozulması" ilə bağlı müddəa var. Ona görə də əmrlə onları işdən çıxara bilmirlər, işdən çıxma ərizəsinə onlardan imza atılması tələb olunur. Aksiyaya çıxanlar könüllü ərizə yazmayanlardır və onlar əmək müqaviləsinə xitam verilməsini istəmirlər.

Qeyd edək ki, metroda gedişhaqlarının qaldırılması məsələsi də zaman-zaman gündəmə gətirilir. Doğrudur, rəsmi açıqlamalarda bunun müzakirə edilmədiyi söylənilsə də, prosesə zəmin hazırlanması ilə bağlı bir neçə faktlar var. Belə ki, Bakı Metropoliteninin subsidiyalaşdırılması 2018-ci ildə 45 milyon manat səviyyəsində qalacaq. Hesablama Palatası (HP) isə dövlət büdcəsi layihəsinə rəyində buna qarşı çıxıb. Palata nəzarət tədbirlərinin nəticələrinə istinadən hesab edir ki, sərnişindaşıma xidmətlərinin maya dəyərini, cəmiyyətin strukturunda olan qeyri-kommersiya təyinatlı obyektlərin fəaliyyəti ilə bağlı müxtəlif xərcləri azaltmaq olar. HP hesab edir ki, maliyyə-uçot intizamının gücləndirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi ilə Bakı Metropoliteninə ayrılan subsidiyaları optimallaşdırmaq olar.

2017-ci ildə "Bakı Metropoliteni" QSC-yə sərnişindaşımadan yaranacaq zərərin ödənilməsindən ötrü 30 milyon manat vəsait (subsidiya) proqnozlaşdırılmışdı. Bu, 2015-2016-cı illərin göstəricilərindən 7 milyon 998.2 min manat və ya 21 faiz az idi. Ancaq bu ilin mart və aprelində hökumət kommunal tariflərin artması ilə bağlı xərcləri maliyyələşdirməkdən ötrü Bakı Metropoliteninə əlavə 15 milyon manat subsidiya ayırıb.

İndi isə ekspertlər tərəfindən belə fikir də səsləndirilir ki, metropolitendə baş verən ixtisarlar da məhz qiymət artımının qarşısını almaq, xərcləri azaltmağa hesablanıb. Çünki metropolitenin rəhbərləri hər zaman bildiriblər ki, sərnişindaşımada qiymətləri məhz subsidiyaların hesabına indiki vəziyyətdə saxlaya biliblər. Subsidiyaların azaldılması isə ekspertlərin fikrincə, ya qiymət artımına, ya da ixtisara yol açmalı idi. Metropoliten isə ikinci variantı seçib.

**Lakin "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev fərqli fikirlər səsləndirib. "Yeni Müsavat"a açıqlamasında N. Paşayev bildirib ki, hər hansı bir ayrı-seçkilikdən söhbət gedə bilməz:** "İşdən çıxarılanların şirvanlı, qazaxlı və digər bölgədən olmalarının heç bir fərqi yoxdur. Şikayətçiləri də başa düşürük. Heç bir insan işini itirmək istəmir. Biz də onlara pislik etmirik. Deyirik ki, qardaş, razılaşma əsasında gedirsən, sabah iş açılanda da qayıdıb, gələrsən. Yəni burada kimsə kimisə yerlibazlıqda və digər məsələlərdə ittiham edirsə, bu, onun öz işidir. Hər bir şəxsin məhkəməyə müraciət etmək hüququ var. Kiminsə şikayəti varsa, məhkəməyə müraciət edib, haqqını axtarsın. Burada təkcə qazmaçılar işdən çıxarılmayıb. Hansı sahədə ki, iş həcmi azalır, o sahəyə aid mütəxəssislər çıxarılır. Məsələn, iki qazmaçı varsa, biri çıxarılır, biri isə qalır".

**N. Paşayev bildirib ki, işdən çıxarılanların sayı təxminən 230 nəfərə yaxındır:** "Məsələnin subsidiyalara heç bir aidiyyəti yoxdur. Çünki subsidiya tikintiyə ayrılmır. İstismar sahəsinin tikinti ilə əlaqəsi yoxdur. Ona görə də qiymət artımının qarşısını almaq və digər məsələlərdən söhbət getmir".

**N. Paşayev bildirib:** "İşçilərə təklif olunur ki, onlara orta aylıq əmək haqqının 2 misli qədər kompensasiya ödənilsin və qarşılıqlı razılaşma əsasında işdən azad edilsinlər, özlərinə iş tapana qədər əllərində pul olsun. Gələcəkdə iş həcmi artarsa, yeni stansiyaların inşasına başlanarsa, yenə həmin adamlar işlə təmin ediləcək. Artıq 50 nəfər buna razı olub və kompensasiyasını alaraq gedir. Bununla belə, təkliflə razılaşmayanlar da var ki, onların da sayı təxminən 10 nəfərdir. Bu adamlar təklifi qəbul etmək istəmir və qanunvericiliyə uyğun olaraq ştatda qala bilərlər. Amma onlara maaş ödənilməyəcək. Onu da deyim ki, bu, tarixən həmişə belə olub. Maliyyə vəsaiti azalanda metro tikintisində iştirak edən işçilərə bu təklif edilir. Şəhid ailələrinə, məcburi köçkünlərə xüsusi yanaşılır. Həmçinin əgər bir ailədən iki nəfər varsa, bunlardan biri işdə saxlanılır".

**N. Paşayev vurğulayıb ki, hazırda bu məsələ ilə bağlı rəhbərliyin açıqlaması hazırlanır. İxtisarlarla bağlı ictimaiyyətə geniş rəsmi məlumat veriləcək.**

❑ Əli RAİS
"Yeni Müsavat"

# Azərbaycan "Yaxşı ölkələr" siyahısında 89-cu yerdə-reaksiyalar

## Ekspertlər hesab edir ki, tək iqtisadi məsələ götürülsəydi, ölkəmiz ön sıralarda olardı



**Dekabrın 11-də "Yaxşı ölkə" indeksi açıqlanıb və Azərbaycan 163 ölkə arasında 89-cu yerdə qərarlaşıb. Bu indeksin məqsədi hər bir ölkənin bəşəriyyətə nə verdiyinin və ölçüsünə uyğun olaraq nə aldığının öyrənilməsidir. İndeks BMT-nin və digər beynəlxalq qurumların məlumatları əsasında hazırlanır, ayrı-ayrı ölkələrin bəşəriyyətin təmiz kreditoru, yoxsa planetə yük olduğu, yaxud bu ikisinin arasında yerləşdiyini üzə çıxarır.**

İndeksin məqsədi odur ki, ölkələrin öz vətəndaşları və dünya qarşısında məsuliyyətlərini necə balanslaşdırmaları üzrə qlobal müzakirələr başlansın. İndeks müəllifləri hesab edirlər ki, bu, bəşəriyyətin gələcəyi və planetin sağlamlığından ötrü vacibdir. 35 indikator əsasında hazırlanmış indeksdə ilk üçlükdə Niderland, İsveçrə və Danimarka yer alıb. "Yaxşı ölkə" indeksinin yaradıcısı Simon Anholt deyib ki, uğurlu ölkə "bəşəriyyətin xeyrinə töhfəsini verən ölkədir".

Beləliklə, ilk 10 "yaxşı ölkələr" bunlardır: Niderland, İsveçrə, Danimarka, Finlandiya, Almaniya, İsveç, İrlandiya, Birləşmiş Krallıq, Avstriya və Norveç.

Azərbaycan 163 ölkə içində 89-cu yerdədir. Qonşulardan Ermənistan 75, Gürcüstan 57, Rusiya 65, İran 131, Türkiyə 38-cidir. Azərbaycan elm və texnologiya üzrə qlobal töhfəyə görə 129, mədəniyyət sahəsində - 139, beynəlxalq sülh və təhlükəsizlikdə - 42, dünya düzəninə töhfəyə görə 132, planet və iqlim kateqoriyasında 29, rifah və bərabərlik üzrə 86, səhiyyə və sağlamlıq üzrə 89-cu yeri tutub. Mədəniyyət kateqoriyasında hərəkət azadlığı, viza məhdudiyyətləri, mətbuat azadlığı, elm və texnologiya bölməsində beynəlxalq tələblər, beynəlxalq nəşrlər, patentlər və digər amillər öyrənilir. Birləşmiş Ştatlar 25-ci yerdədir. İndeksdə sonuncu 163-cü yeri isə Əfqanıstan tutub.

**İqtisadçı ekspert Natiq Cəfərli bunu tam bir elmi araşdırma kimi qəbul etməyin doğru olmadığını dedi:** "Bu indekslərin hazırlanmasında müxtəlif indikatorlardan istifadə olunur. O indikatorlar ölkə ərazisində təhsilin, səhiyyənin, minimumum əmək haqqının, minimum təqaüdün səviyyəsini, məhkəmə sistemini nəzərə alır. Yəni institusional olaraq ölçülər aparılır. İstər Azərbaycan olsun, istərsə də digər ölkələr, indeksləşmə aparılarkən institutların necə çalışdığının ölçüsünü aparırlar. Ondan sonra belə bir indeksin yaranmasına səbəb olur. Bunu tam bir elmi araşdırma kimi qəbul etmək doğru deyil. Amma ən azından dünyada seçilən və nəzər yetirilən indekslərdən biridir. Azərbaycanda ən böyük problem institusional problemdir. Yəni institutların çalışmasıdır. İndekslərin formalaşmasında bu çox önəmlidir. Təhsil institutunun, səhiyyənin, məhkəmələrin, iqtisadi institutların, iş yerləri, dolanışıqla bağlı olan bütün indikatorlar hesablanarkən ortalığa belə bir rəqəmlər çıxır. Burada tək iqtisadi məsələ götürülsəydi, Azərbaycan ən azından Ermənistandan qabaqda olardı. Çünki iqtisadi göstəricilər hələ də bizdə Ermənistandan daha yaxşıdır. Deməli, tək iqtisadiyyat deyil, institusional dəyişikliklərin olması insanların özünü rahat, xoşbəxt, ədalətli mühitdə hiss etməsi ilə ölçülür. Bu barədə Azərbaycanda problemlər var".

**Sosioloq Əhməd Qəşəmoğlu bu indekslərin hesablanmasında subyektivlər və dəqiq olmayan məsələlərin çox olduğunu bildirdi:** "Bu barədə Birləşmiş Millətlər Təşkilatının nümayəndələrinin də iştirak etdiyi bir tədbirdə çıxış etmişəm. Ola bilsin ki, indekslərin dəqiqləşməsi sahəsində gələcəkdə onlarla mənim bir əməkdaşlığım da oldu. Bu indekslərə diqqət etsəniz, mənəviyyatı da nəzərə ala bilən tərəflər yoxdur. Orada, sadəcə, həyat səviyyəsi, sosial problemlərlə bağlı bəzi şeylər vardı. Məsələn, Norveç həmişə qabaqda olur, bu ölkə bir çox sahələrdə üstün olsa da, mənəvi-əxlaqi tərəfdən ortaya həmişə suallar çıxaran bəzi şeylər olur, digər ölkələrdə də həmçinin. Yəni demək istəyirəm ki, bu indekslərin özü mükəmməl deyil. Bayaq da dediyim kimi, Birləşmiş Millətlər Təşkilatının nümayəndələri ilə də bu barədə söhbətim olub".

**Ə. Qəşəmoğlu ümumən götürdükdə bu yerdə olmağımızın ürəkaçan olmadığını dedi:** "Digər tərəfdən, bizdən öndə olan ölkələr barədə ətraflı məlumatım yoxdur ki, sizə deyim doğrudan da onlar bizdən üstündür ya deyil. Amma biz də tənqid olunası, düzəldiləsi, arzu olunan səviyyəyə çatmaq üçün yəqin ki, çoxlu problemlər var ki, yuxarıda deyilik. Əgər 100-ə qədər eniriksə, demək ki, bizdə həyat səviyyəsi, güzəranla bağlı, bəlkə səhiyyə, bəlkə təhsillə bağlı problemlər var. Biz,də 10 milyona yaxın əhali var və bunun içərisində təbii ki, sosial vəziyyəti ağır olanlar da var və sairə. Mən bu suala o vaxt müfəssəl cavab verə bilərəm ki, o biri ölkələrdəki məlumatlar da əlimin altında olsun. Ümumən isə təbii ki, bu yerdə olmağımız o qədər də ürəkaçan deyil".

❑ Günel MANAFLI



# ABŞ bu il də Qarabağ "meydanı"nı Rusiyaya saxladı - səbəb

## Moskvanın vasitəçilik məsələsində davam edən şəriksiz monopoliyası ədalətli nizamlama önündə əsas əngəl olaraq qalır; **politoloq:** "Lavrovun son Qarabağ bəyanatı birbaşa ermənilərin mənafeyinə xidmət edir..."

**Rusiya bu il də Dağlıq Qarabağ məsələsində öz həlledici təsir imkanlarını saxlaya bildi. Bu amil əfsus ki, problemin həllinə deyil, uzanmasına xidmət edir. Rusiya faktorunu isə potensial olaraq, ABŞ neytrallaşdıra bilər. Yenə təəssüflər olsun ki, rəsmi Vaşinqtonun gündəmində Qarabağ məsələsi ön yerlərdə deyil. Bu da ilk növbədə işğalçı Ermənistanın əsas müttəfiqi, daha doğrusu, havadarı Rusiyaya imkan yaradır ki, konfliktlə istədiyi şəkildə manipulyasiya eləsin.**




Belə yanaşma sabiq prezident Barak Obamanın 8 illik hakimiyyəti dönəmində də dəyişmədi. ATƏT-in Minsk Qrupunun sabiq amerikalı həmsədri, ABŞ-ın ölkəmizdəki keçmiş səfiri Metyu Brayzanın çağırışlarına rəğmən, Obama administrasiyası Dağlıq Qarabağ ixtilafı ilə bağlı ciddi heç bir təşəbbüskarlığı ilə yadda qalmadı, Rusiya prezidenti Putindən fərqli olaraq, Vaşinqtonda bircə dəfə belə, Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil eləmədi. Halbuki bunu reallaşdırmaq elə də çətin deyildi. Donald Tramp Ağ Evə sahibləndikdən sonra da reallıq dəyişməmiş qalır - Ağ Evin Qarabağ konfliktinə maraq və diqqəti əvvəlki tək yetərli deyil.

*****

**Bu xüsusda Amerika Xarici Siyasət Şurasının baş elmi əməkdaşı, professor Stefan Blankın "The Hill" qəzetində dərc edilmiş məqaləsi öz aktuallığı ilə diqqət çəkir (virtualaz.org). Müəllifə görə, ABŞ-ın Qafqazdakı həyati əhəmiyyətli maraqları 1990-cı illərdə olduğu kimidir və dəyişməz qalır.** "Bu maraqlar ondan ibarətdir ki, region dövlətləri müstəqilliklərini qoruyub saxlasın, öz sərhədləri daxilində real suverenliyə malik olsun, bir-birləri ilə sülh şəraitində yaşasınlar və beynəlxalq iqtisadi bazarlar üçün açıq olsunlar", - deyə o qeyd edib. Ancaq ardınca müəllif təəssüflə bildirir ki, mövcud reallıq bu maraqlardan ciddi fərqlənir: "ABŞ-ın regiona dair son vaxtlar yürütdüyü siyasətin qiymətləndirməsi göstərir ki, Vaşinqton Cənubi Qafqaz regionuna laqeyddir. Bu laqeydlik öz növbəsində regionun problemlərinin dərinləşməsinə, meydanın Rusiya üçün daha geniş açılmasına gətirib çıxarır".

Sitat: "Rusiya habelə məqsədli şəkildə Ermənistanla Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsini "əbədiləşdirir", bu münaqişədən Ermənistanda hərbi iştirakını gücləndirmək üçün istifadə edir. Moskva öz silahlı qüvvələrindən təkcə Ermənistanı tabeçilikdə saxlamaq üçün deyil, Azərbaycana və Gürcüstana qarşı təhdidlər üçün də istifadə edir. Moskva habelə əhəmiyyətli ölçüdə qeyri-hərbi qüvvələrindən istifadə edərək Azərbaycan və Gürcüstanın siyasi sistemlərini, suverenliyini təhdid altında saxlayır, Ermənistan üzərində iqtisadi hökmranlığa nail olur.... ABŞ tərəfdən Bakının davam etməkdə olan demokratikləşmə prosesi ilə bağlı səylər zəifləyib. Çünki biz onların ərazi bütövlüyünə, Dağlıq Qarabağ məsələsinin ədalətli həllinə laqeyd olmuşuq. Nə qədər ki, ABŞ və Avropa müharibəyə gəlib çıxmayanadək bu problemə ciddi yanaşmayacaq, Bakının onların demokratiya ilə bağlı tənqidlərinə ciddi yanaşacağı ehtimalı da az olacaq. Biz Dağlıq Qarabağ münaqişəsinə ciddi yanaşmaqla və vasitəçilik səylərini gücləndirməklə təkcə Azərbaycan üzərində təsirlərimizi gücləndirmiş olmayacağıq, eyni zamanda Ermənistanın da Rusiyadan asılılığını azaldacağıq, bununla da dinc, demokratik və liberal Qafqazın əsasını qoymuş olacağıq".

*****

Hələliksə işğalçı Ermənistan Rusiyaya, xüsusən də onun erməni kökənli xarici işlər naziri Sergey Lavrova arxayın olaraq, işğal rejimini davam etdirir, hətta etnik təmizləmə apardığı Azərbaycan torpaqlarını süni şəkildə ermənilərlə məskunlaşdırmağa cəhdlər edir. Yeri gəlmişkən, Lavrovun ötən həftəsonu Qarabağa dair verdiyi açıqlamalar erməni tərəfini ruhlandırmağa yönəlib, nəinki problemin ədalətli həllinə.

**"Sergey Lavrovun Dağlıq Qarabağ bağlı son bəyanatı birbaşa ermənilərin mənafeyinə xidmət edir". Bunu axar.az-a Rusiya XİN başçısı Lavrovun tərəflərin Dağlıq Qarabağ münaqişəsinin həllində ərazi bütövlüyü, öz müqəddəratını təyinetmə və güc tətbiq etməmək prinsiplərinə razılıq verdiyini ifadə edən bəyanatı barədə danışan sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. O bildirib ki, Lavrovun bu bəyanatı açıq-aşkar Azərbaycan torpaqlarının anneksiyasına bəraət qazandırmaqdır.**

"Lavrovun bu diplomatik manevri özündə işğalçının başı altına yastıq qoymaq siyasətini ehtiva edir. Bəyanatda Azərbaycanın ərazi bütövlüyünün dilə gətirilməməsi açıq-aşkar Ermənistanın və Qarabağ separatçılarının qorunması cəhdidir. Ermənilərə hazırda lazım olan Dağlıq Qarabağın hüdudlarından kənardakı əraziləri erməni əhalisi ilə məskunlaşdırmaqdır. Fikir verin, Cəbrayılda bir neçə kənddə ermənilərin məskunlaşdırılması prosesi başlayıb. Erməni maliyyəsi hesabına xaricdən gətirilən quraşdırılma birmərtəbəli evləri burada yerləşdirməklə bu prosesi sürətləndirmək istəyirlər", - deyə o qeyd edib.

**Danışıqlar prosesinin artıq səmərə vermədiyini deyən politoloq hazırda Ermənistana yeganə təsir vasitəsinin güc olduğunu vurğulayıb:** "Ermənilərin işğal edilmiş ərazilərimizdə məskunlaşması prosesi dayandırılmırsa, BMT-nin məlum qətnamələrinə zidd olan bu prosesi Azərbaycan özü dayandırmağa məcburdur. Azərbaycan beynəlxalq vasitəçilərdən, o cümlədən Rusiyadan ədalətli yanaşma gözləyir".

*****

Rusiyadan ədalətli nizamlama ummaq isə deyəsən, yırtıcı heyvandan vegetarianlıq gözləmək qədər qeyri-real görünür. Krem Mixail Qorbaçov dönəmindən üzü bəri - 29 il ərzində, həm SSRİ, həm də Rusiya dönəmində əlində böyük imkanlar və rıçaqlar ola-ola, buna cəhd etməyibsə, bundan sonra edəcəyini düşünmək sadəlövhlük olar. Tək səbəbə - münaqişənin yaradıcısı, "memarı" məhz Kremldir. Hədələri də çoxdan bəlli.

Bu mənada bir daha vurğulamaq zərurəti var ki, Rusiyanın Dağlıq Qarabağ konfliktinin həllinə ən böyük töhfəsi sülh məsələsinə maneə yaratmaması, Ermənistana dəstəyini çəkməsi ola bilər. Gerisi sadədir: İrəvan ya dərhal sülhə gəlməli olacaq, ya da Azərbaycan buna onu zorla məcbur edəcək. Qısa zamanda...



Anjey Kaspşik

## ATƏT sədrinin şəxsi nümayəndəsi cəbhə xəttində monitorinq keçirəcək

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 13-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində növbəti monitorinqin keçirilməsi planlaşdırılır. Bu barədə musavat.com-a Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik və onun səhra köməkçisi Oqnyen Joviç keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru, Gennadi Petrika və Saymon Tiller keçirəcəklər.

# "Böyük arzularımın heç birini həyata keçirə bilməmişəm"

## 70 yaşı tamam olan **Rəsul Quliyev:** "Bu tarix mənim üçün hər yerdə eynidir"

**Amerikada mühacir həyatı yaşayan sabiq spiker Rəsul Quliyevin dekabrın 10-da 70 yaşı tamam oldu. 22 ildir ölkəsindən uzaqlarda olan yubilyarın ünvanına çoxsaylı təbrik mesajları ünvanlanıb.**

*"Yeni Müsavat" olaraq, sabiq spikerlə yubiley müsahibəsi etdik.*

***- Rəsul bəy, qürbətdə daha bir doğum gününüzü qeyd etdiniz. Necə keçirdiniz? Artıq səhv etmirəmsə, 22-ci doğum gününüz xaricdə oldu. Bu illər sizə nə deyir? Öz ölkənizdəki ad gününüzlə xaricdə bu günü qeyd etməyiniz arasında hansı fərqli və oxşar cəhətlər var?***

- Ümumiyyətlə, mən nə Azərbaycanda, nə də Amerikada heç vaxt heç bir ad günü keçirmədiyimə görə bu tarix mənim üçün hər yerdə eynidir. Yeganə bir hal olub ki, bir dəfə bir neçə yaxın dostumun xahişi ilə 50 yaşımı İstanbulda qeyd etmişəm, onu da təmtəraqsız. İştirak edən bir neçə nəfər məni yaxşı tanıdıqları üçün tərifli tostlar demədilər. Ad günlərində belə tostlar demək qəbul olunmuş faktdır, ancaq mənim üçün yox. Məni tərifləyəndə özümü pis hiss edirəm. Mənimlə masa arxasında oturan istənilən adam bunu təsdiqləyə bilər. Və bu 22 ildə Bakıda olduğu kimi heç bir vaxt ad günü mərasimi keçirməmişəm, o cümlədən 70-i. Yeganə 70 yaşın tamam olması ərəfəsində xalq üçün nələr edə bilərdim, ancaq edə bilmədim, təəssüf hissi daha qabarıq şəkildə üstümə gəldi. Hər halda, mən 22 il Azərbaycanda yaşayıb çalışa bilsəydim, indiki Azərbaycan tamamilə fərqli bir ölkə olardı. Bizi bu gün Gürcüstan, Ermənistan, Qazaxıstanla yox, ən azı Baltikyanı ölkələrlə müqayisə edərdilər.

***- 70 yaş sizə nə deyir? Bu yaşa qədər gəlib çatmaq bir insan üçün nə deməkdir?***

- İnsan anadan olandan ölənə qədər yaşamağa məcburdur. Həyatda hər bir insan fərqli fərddir. Heç əkizlərin eyni olmaq şansları yoxdur. İnsanların həyatı mənfi və müsbət emosiyaların toplumundan ibarətdir. Hamı kimi mən də bu emosiyaların toplumundan ibarət bir həyat yaşamışam. Ümumiyyətlə, mənim ətrafımda baş verənlərə biganə olmamağım bu günə qədər də davam edir. İnsanların əziyyət çəkməsi, pis yaşamaları məndə sevinməyimdən 10 dəfə çox emosiya yaradır. Ona görə bütün varlığımla insanlara kömək etməyə, yaşamaqlarına şərait yaratmağa çalışıram. Bu hisslərim də bu günə qədər davam edir. 70 il və ya istənilən başqa rəqəm ömürdən razı qalmaq insanlarda bir çox mənfi keyfiyyətlərin olmasından xəbər verir. Özündən razı olan, tərifdən ləzzət alanlara-sadə insanlardan söhbət getmir, vəzifədə olanlar və olmuşlara aiddir-axmaqlıq və müştəbehliyin ifrat formasıdır. Bu tip adamlar insanlara qulluq edə bilməzlər, özləri təşkil etdikləri tərif salnamələrinə bir müddətdən sonra özləri də inanacaq və daxili erroziya daha böyük sürətlə gedəcək.



### "Emosiyaların toplumundan ibarət bir həyat yaşamışam"

***- Maraqlıdır, Rəsul bəyin doğum gününü ilk təbrik edən kim oldu? 22 il qürbətdə olan Rəsul Quliyev ad günlərində getdikcə unudulduğunu görür, yoxsa əksini?***

- Ailə üzvlərim, vaxtilə birlikdə işlədiyim, indi Azərbaycanda yaşamayan insanlar... Mən ad günlərimin unudulmasından nəinki narahat deyiləm, əksinə, bunu istəyirəm. Əsas məsələ sənin bir şəxs kimi unudulmamağındadır. Əvəz Zeynallı 70 illə əlaqədar özünün təşəbbüsü ilə əsasən, intervülərdən ibarət bir film çəkib. Mən ona axıra qədər baxdım və müsbət emosiyam artdı. Çünki insanlar mənimlə əlaqədar özümün çoxdan unutduğum faktları sadalayanda unudulmadığımı və hələ də camaatın məndən nəsə gözlədiyini gördüm.

***- Azərbaycandan ünvanınıza çoxmu təbriklər gəldi? Facebookda ümumi səhifənizə təbrik yazmaq mümkün deyildi, yalnız mesaj göndərmək mümkün idi ki, bunu da yalnız siz görürsünüz...***

- Təbriklər kifayət qədər çox idi.

***- Keçmiş müttəfiqlərinizdən kimlər sizi təbrik etdi? Gözlədiyiniz siyasi liderlərdən, siyasət adamlarından təbrik mesajları aldınızmı? Konkret olaraq, 2003 və 2005-ci illərin seçkilərində müttəfiq olduğunuz liderlərdən sizi təbrik edənlər oldumu? Yoxsa onların ya təbriklərini görmək istəmirdiniz, ya da heç onlar təbrik etmədilər?***

- Mənim elə bir müttəfiqim olmayıb. Müttəfiqliyə yaxın olanların demək olar ki, hamısı intervülərdə bu işi gördülər. Ancaq Mirmahmud Mirəlioğlu telefon açdı. Biz bir neçə dəfə müxtəlif qruplar yaradıb, ümumi müxalifət kimi çıxış etmişik. Ancaq o qrupa daxil olanlar, sadəcə olaraq, bu hakimiyyətə qarşı əgər belə demək mümkünsə, mübarizədə birləşmişdilər. Müttəfiqlik daha geniş məna daşıyır.

***- Vaxtilə hakimiyyətdə təmsil olunduğunuz komanda yoldaşlarından sizləri təbrik edənlər oldumu?***

- Xeyr olmadı.

***- Növbəti doğum gününüz üçün nə düşünürsüz?***

- Doğum günü keçirmədiyim üçün o barədə düşünmürəm.

***- Bundan sonra həyatınızda, sizcə, nələr dəyişə bilər?***

- Fundamental həyat anlayışım dəyişilməzdir. Yeni azad insan kölə insandan ən azı 10 dəfə yaxşı yaşaya bilər, dövlətin liderlərinin vəzifəsi qanunlar çərçivəsində bu azadlığın yaradılması və qorunmasını təmin etmək olmalıdır. Dövlət onun inzibati orqanları ilə birlikdə vətəndaşlarının işlərinə qarışmamalı və onların azad fəaliyyət göstərməsinə mane olmamalı, korrupsiya və rüşvət ölkədə ən ağır cinayət sayılmalıdır. Dediklərimi həyata keçirmək ümidimi hələ də itirməmişəm.

***- Rəsul Quliyev istədiyi həyatı yaşayıb?***

- Normal düşüncəli insan ömrü boyu heç vaxt istədiyi həyatı yaşaya bilməz. Hətta ağlı yerində olsa belə, ömrünün axırında özündən narazı olacaq.

***- 70 yaşında ən böyük arzunuz nədir?***

- Düşünürəm ki, ən böyük arzularımın heç birini həyata keçirə bilməmişəm. İnsan yaşadığı müddətdə qarşısına müəyyən məqsədlər qoyur və onlara çatdıqca bu artıq keçmiş həyata keçir və yeni arzular ortaya çıxır. Həyata kiçik arzularla qədəm qoyub inkişaf etdikcə arzularının həcmi də böyüyür. 1996-cı ildə Azərbaycan xalqının gələcəyi ilə əlaqədar formalaşmış arzularımın heç biri yerinə yetirilməyib.

### "Ad günlərimin unudulmasını istəyirəm"

***- İndiyə qədər doğum günlərinizdən hansı yaddaşınıza həkk olunub?***

- Mənim yaddaşımda 5 yaşımda əlifbanı höccələməyimdən tutmuş birinci sinfə getməyim, orta məktəb, institut və sonrakı həyatımın bütün anları yadımdadır, ancaq heç bir əlamətdar ad günü yaddaşımda yoxdur. Çünki yuxarıda da qeyd etdiyim kimi ad günü keçirməmişəm.

❑ **Cavanşir ABBASLI,**
❑ **"Yeni Müsavat"**



# "KİV haqqında" Qanun "reket jurnalistlər"ə görə dəyişir

## Mətbuat Şurasının sədri Əflatun Amaşov qanunun 19-cu maddəsinə ediləcək dəyişiklikdən danışdı

**Son zamanlar Milli Məclisdə "Kütləvi informasiya vasitələri haqqında" qanunvericilik bazası daha da təkmilləşdirilir. Vaxtaşırı müəyyən qanunların müzakirələri gündəmə gəlir və bəzi əlavələr, dəyişikliklər edilir. Artıq "onlayn" media və digər KİV-lərlə bağlı qanunvericilkdə müəyyən işlər görülür".**

Bu sözləri Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov modern.az-a açıqlamasında deyib.

Mətbuat Şurasının sədri bildirib ki, "Kütləvi informasiya vasitələri haqqında" Qanunun 19-cu maddəsinə ediləcək dəyişiklik kütləvi informasiya vasitəsinin istehsalının və yayımının dayandırılması və ya ona xitam verilməsi qaydası ilə bağlıdır.

"Dəyişikliyə görə, kütləvi informasiya azadlığından və ya jurnalist hüququndan sui-istifadə etməyə görə inzibati məsuliyyətə cəlb edildikdən sonra həmin əməli inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törətdikdə mətbu nəşrin fəaliyyətinin iki ay müddətində dayandırılması barədə məhkəmə qarşısında iddia qaldırıla bilər".

**Ə.Amaşov qeyd edib ki, qanuna əlavənin edilməsi daha çox reketyönlü mətbuat vasitələri ilə bağlıdır.**

"Əlbəttə ki, ciddi mətbuat vasitələri qanunu pozmurlar. Əgər "KİV haqqında" Qanuna zidd addımlar atan zaman da bunu anlayırlar və bir daha təkrar etmirlər. Amma çox təəssüflər olsun ki, Azərbaycanda bir qrup reketyönlü mətbuat vasitəsi var. Onların da məqsədi cəmiyyəti məlumatlandırmaq, əyləndirmək, bilgi vermək deyil, şəxsi mənafeləri üçün insanlara böhtan atmaq, qorxutmaqdır. Bunların müqabilində isə insanlardan nəyisə qopartmaqdır. Bu sayaq "media vasitələri"nin sayı çoxdur. Mətbuat Şurası da mütəmadi olaraq bu məsələləri diqqətdə saxlayır. Həmin medai vasitələrini qara siyahıya salır. Onlar üçün 1-2 dəfə qanun pozuntusunun heç bir əhəmiyyəti yoxdur. Belə qanun pozuntularından isə ən çox zərər çəkən ölkə vətəndaşları olur. Ölkə vətəndaşlarının şəxsi həyatına müdaxilə olunur, şərəf və ləyaqətləri alçaldılır. Ən əsası isə həmən mətbuat vasitələri öz məqsədlərinə çatmaq üçün insanların üzərinə böhtanlar atır, yanlış informasiyalar yayırlar. Belə olan halda isə kütləvi informasiya azadlığından və ya jurnalist hüququndan sui-istifadə etməyə görə inzibati məsuliyyətə cəlb edildikdən sonra həmin əməli inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törətdikdə mətbu nəşrin fəaliyyətinin iki ay müddətində dayandırılması məsələsi gündəmə gəlir".

Deputat bildirib ki, "Kütləvi İnformasiya vasitələri haqqında" qanuna edilən dəyişikliklər ölkə vətəndaşlarını "mətbuat vasitələri"ndən qorumaq məqsədi daşıyır.

"Qanuna ediləcək dəyişiklikdə mətbu nəşrin fəaliyyətinin tam dayandırılmasından söhbət getmir. Burada söhbət iki ay müddətindən gedir. Bu müddət ərzində "Kütləvi İnformasiya vasitələri haqqında" Qanuna əməl edənlər öz fəaliyyətlərini davam etdirə biləcəklər. Əgər kimlərsə nəticə çıxarmasa, həmin mətbu nəşrin fəaliyyəti tam dayandırılacaq. Qanuna ediləcək dəyişiklikdə əsas məqsəd jurnalist məsuliyyətinin daha da möhkəmlənməsi, cəmiyyət-jurnalistika münasibətlərinin daha da genişləndirilməsidir".

Qeyd edək ki, Milli Məclisin dekabrın 15-də keçiriləcək plenar iclasında "Kütləvi informasiya vasitələri haqqında" Qanuna dəyişiklik müzakirə ediləcək.

YENİ MÜSAVAT
N 261 (6875) 13 dekabr 2017

**Demokratiya və Rifah Hərəkatının sədri Qubad İbadoğlu publika.az-a müsahibəsində uzun illər üzvü olduğu Müsavat Partiyasının üzvlərinə partiyadaxili demokratiyanın qurulması çağırışını edib: "Mən sıravi müsavatçılara səslənmək istəyirəm. Əgər Müsavat Partiyasının güclənməsini istəyirlərsə, orda ilk növbədə partiyadaxili demokratiya olmalıdır, qərarların qəbulunda inhisarçılığa son qoyulmalıdır, alternativ və tənqidi fikirlər dinlənilməlidir".**

# Liderlər partiyadaxili demokratiyadan danışdılar, həm də necə...

## Müsahibəyə görə idarə heyətinin töhmət verdiyi partiya sədri kimdir?




Qubad İbadoğlunun partiyadaxili demokratiya məsələsindən danışması siyasi partiyalarda daxili demokratiyanın hansı səviyyədə olub-olmadığını gündəmə gətirir.

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, partiyaların daxilində demokratiyanın hüquqi əsası olmalıdır. Yalnız partiya sədrinin partiyadaxili demokratiya yaratması kimi yanaşma düzgün deyil. Partiyanın seçkili orqanlarının bir-birinə qarşılıqlı nəzarəti təmin etməsi ayrı-ayrı mexanizmlərlə həyata keçirilməlidir: "Yeni partiyanın Məclisi, Nəzarət Təftiş Komissiyası var. Bu orqanların funksiyaları və fəaliyyəti elə tənzimlənməlidir ki, avtomatik olaraq qarşılıqlı nəzarət imkanları meydana çıxsın, hesabatlılıq meydana gəlsin. Hər şey sədrdən asılı olanda əlbəttə ki, partiyadaxili demokratiyadan söhbət gedə bilməz. İkincisi, partiyanın nizamnaməsində üzvlərin hüquq və azadlıqlarını elə təmin etmək lazımdır ki, o üzvlərin öz iradəsini partiya daxilində azad ifadə etməsinə hər hansı bir formada manеə olmasın. Partiyadaxili demokratiya partiya üzvlərinə verilən hüquqi imkanlardır. Partiyalar ölkənin konstitusiya və digər qanunlarına görə fəaliyyət göstərdiyi üçün bu qanunların verdiyi demokratik hüquqlar partiyaların nizamnamələrində öz əksini tapmalıdır. Məsələn, bizim partiyanın nizamnaməsinə görə partiya öz üzvlərinə konstitusiyanın verdiyi hüquqları məhdudlaşdıra bilməz.

Ümumiyyətlə, Azərbaycanda demokratiya məsələsi, partiyadaxili demokratiya məsələsi bir qədər fərqli başa düşülür. Demokratiya ilə anarxiyanı, özbaşınalığı bəzən qarışdırırlar. Demoqoqluq, özbaşınalıq demokratiya deyil. Biri partiya daxilində anarxiya yaradılmasını istəyirsə, bunu demokratiya hesab etmək olmaz. Ona görə də demokratiyanın nə olduğu ilk növbədə müəyyən edilməlidir".

**S.Cəlaloğlu dedi ki, bəzən partiyaları dağıtmaq üçün partiyadaxili demokratiya adı altında liderin nüfuzdan salınması da müşahidə olunur:** "Partiyadaxili diskussiyalar olmalıdır, amma süni surətdə diskussiya açılırsa, bu, partiyanın dağılmasına gətirib çıxarır. Ona görə də belə hərəkətlərin qarşısı alınmalıdır. Partiyadaxili demokratiya nə qədər vacibdirsə, partiyanın daxilində anarxiyanın qarşısının alınması da bir o qədər vacibdir. ADP-də həm partiyadaxili demokratiya mövcuddur, həm də anarxiya və demoqogiya yolverilməzdir. Bizim partiyada hər bir üzvə öz mövqeyini ifadə etməsi, haqlı olduğunu isbatlaması üçün baryer yoxdur. Hətta bir dəfə mənim bir qəzetdə verdiyim müsahibəyə görə partiyanın idarə heyəti mənə töhmət vermişdi. Əsas olsa hətta mənim məsələmi Ali Məclisə də çıxara bilərlər. Çoxluğun mövqeyini görüb bəzən mən öz mövqeyimdən də imtina edirəm. Demokratiya bəzən mənfi meylləri də ortaya çıxarır. Çoxluq həmişə həqiqətin tərəfində olmaya bilər. Bəzən əsl həqiqət azlıqda olur".

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, partiyadaxili demokratiyanı partiyanın nizamnaməsi təmin edir. Nizamnamənin tələblərinə riayət olunursa, deməli, partiyadaxili idarəetmədə demokratiya mövcuddur:** "Bu, əsas göstəricidir. Biz nizamnamədənkənar fəaliyyət göstərmirik. Şəxsi avtoritetin rolu hər yerdə böyükdür. Şəxsi avtoritetin rolu da təbii ki, qərarların qəbul olunmasında öz təsirini göstərir. Bunsuz da mümkün deyil. Demokratik ənənə təkcə qərarların qəbul olunması ilə ölçülməməlidir. Məsələn, biz parlamentdə təmsil olunanda dairə seçki komissiyalarında təmsil olunmaq üçün nümayəndələr göndərməliydik. Partiyanın daxilində imtahan keçirildi. Səhv etmirəmsə, 41 yerə qarşı 100-dən yuxarı ərizə verilmişdi. İmtahandan yüksək bal toplayanlar DSK-da təmsil olundular. 2013-cü ilin prezident seçkilərindən sonra seçkiyə münasibət üçün Rəyasət Heyətinin qərarı gizli səsvermə ilə həyata keçirildi. Bu tipli proseslər çox olub və olur. Bizim partiyanın nizamnaməsi çox demokratikdir və partiya nizamnamə ilə idarə olunur".

**VİP sədri Əli Əliyev dedi ki, partiyalarında qərarlar kollegial şəkildə qəbul olunur. İdarəetmədə sədrin diktəsindən söhbət gedə bilməz:** "Siz müraciət edəndə Siyasi Şuranın iclası gedirdi. Dekabr ayında ilin yekunları ilə bağlı tədbir hazırlamaq üçün toplaşmışdıq. Qərar kollegial şəkildə qəbul olundu. İclasın müzakirəsində ilk məsələ kimi tədbirin siyasi məqsədəuyğunluğu dəyərləndirildi. Belə və digər məsuliyyətli məsələlərin qərarı kollegial şəkildə qəbul edilir. Belə olmazsa, partiyanı idarə etmək müşkül olar. Bizim daxili qaydalarımıza görə müzakirə mərhələsində hamı öz fikrini bildirmək səlahiyyətinə malikdir. Elə bugünkü iclasın gedişatında tədbirlə bağlı daban-dabana zidd mövqelər var idi. Lakin gedişatda ümumi məxrəcə gəlindi. Müxalifətdə duran partiyaların üzv və tərəfdarlarına təhlükə və məhrumiyyət reallığı qarşılığında avtoritar münasibətlər qurmaq alınmaz".

**Hakim Yeni Azərbaycan Partiyasının deputatı Bəxtiyar Sadıqov bildirdi ki, təmsil olunduğu partiya kifayət qədər demokratik əsaslarla idarə olunur:** "Mən bir partiya üzvü olaraq bunun şahidiyəm. YAP-ın hər bir üzvü istədiyi vaxt təklif verə bilər. Dəfələrlə mən Ağdam rayon təşkilatı ilə bağlı və ya Mərkəzi Aparatla bağı fikrim olanda təkliflər vermişəm. Hökm deyil ki, təklifi məhz iclasda əlini qaldırıb deyəsən. YAP-ın sədr müavinləri bizim deputat həmkarlarımızdır və hər kəsi də dinləyirlər. Ürəyimizdən keçəni deyirik və buna görə heç bir problem yoxdur. Partiyanın daxilində müzakirələr hər zaman demokratik prinsiplər qorunmaqla gedir. Demokratiya həm də onu tələb edir ki, partiya səs çoxluğu ilə qərar qəbul edirsə, bir üzv olaraq sən onu icra eləməlisən. Məsələ müzakirə olunanda hər kəs öz mövqeyini ifadə edə bilər. Elə ki, səsvermə ilə qərar qəbul olundu. Hər kəs o qərara tabe olmalıdır. Tabe olmamaq demokratiya sayıla bilməz. Partiyada demokratiya mövcuddursa, bu o demək deyil ki, sən ondan sui-istifadə edə bilərsən. YAP-dakı demokratik mühiti bəyənirik".

❑ **Etibar SEYİDAĞA**

# "Heydər Əliyev həbsimə imkan vermədi"

## Tahir Kərimli: "Heydər Əliyev dedi ki, iş təklifimi qəbul etmirsənsə, get öz prezidentinin yanına - Kələkiyə"



**"1993-cü ildə Azərbaycanda ən ağır vaxtlar idi. Prezident Əbülfəz Elçibəy çıxıb Kələkiyə getmişdi, AXC hökumətinin bəzi məmurları istefaya göndərilmişdi. Mən bir növ tək qalmışdım. Həmin vaxtlarda Ali Sovetin rəhbərliyinə gətirilən mərhum Heydər Əliyev Bakıda məni qəbul etdi. Onunla çox səmimi görüşümüz oldu". Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Tahir Kərimli modern.az-a müsahibəsində belə deyib.**

T.Kərimli daha sonra deyib: "Heydər Əliyev hakimiyyətə gəlməzdən əvvəl onu müdafiə etmişdim. Demişdim ki, ağsaqqaldı, ona qarşı kobudluq etməyin. Ona görə də Heydər Əliyev mənimlə işləmək istəyirdi. Mənə iş təklif etdi. Amma mən imtina etdim, dedim ki, mənim öz prezidentim var. Heydər Əliyev dedi ki, "hamı mənimlə işləmək istəyir, amma sən iş təklifimi qəbul etmirsən. Onda get öz prezidentinin yanına - Kələkiyə". Sonra mənə dedi ki, Ali Məhkəmədə işləmək istəmirəmsə, Prezident Aparatında vəzifə verə bilər".

**T.Kərimli bildirib ki, 1990-1995-ci illərdə deputat olduğu müddətdə çox kəskin çıxışlar edib:** "Belə çıxışlar çoxlarını vahimələndirsə də, mən heç kimdən qorxmurdum. Çünki nə var-dövlət toplamışdım, nə də özüm üçün kimdənsə xahişlər etmişdim. Bunu da Heydər Əliyev bilirdi. Açığı deyim ki, mənə hörməti vardı. Bəlkə də o səbəbdən mənim tutulmağıma imkan vermədi. Görüşümüz zamanı çay gətizdirdi. Onunla mehriban söhbət etdik. Dedi ki, "sağ ol, 70 illiyimdə məni təbrik etmək üçün nümayəndə heyəti göndərmisən".

Yəqin ki, görüşümüzün səs yazısı qalar. Mən Ali Sovetdə Heydər Əliyevə demişdim ki, o, siyasət aləminin balinasıdır. Rəhmətlik də həmin görüş zamanı gülə-gülə bu sözü xatırlatdı ki, ona belə demişəm".

Tahir Kərimlinin sözlərinə görə, o zamanlar Ali Sovetdə ona qarşı kəskin çıxışlar edən deputatlar vardı.

"Heydər Əliyevlə görüşümüzdə o, mənə dedi ki, "sənin özününkülər də sənə qarşı kəskin çıxışlar edirlər". Rəhmətlik mənim Ali Sovetin tribunasından səsləndirdiyim bir lətifəni də xatırlatdı.

Heydər Əliyev dedi ki, "gəl, bir yerdə işləyək, sənə hörmətim var. Həyat yolunun hamısını bilirəm. Sən də mənim kimi çox enişli-yoxuşlu yol keçmisən".

Doğrudan da Heydər Əliyev çox keşməkeşli həyat yolu keçib. Ona görə mənim ona həmişə böyük hörmətim olub. Onun yüksək natiqlik qabiliyyəti vardı, səliqəsinə çox fikir verərdi, əsl diplomatik adam idi. Allah rəhmət eləsin".

YENİ MÜSAVAT
N 261 (6875) 13 dekabr 2017

# Bank dələduzluğu ahıl kişinin həyatını alt-üst edib

75 yaşlı kişi 44 ildən sonra arvadını da boşayıb; **Tofiq Xəlilov:** "Etibarımdan sui-istifadə edib bu yaşımda məni küçələrdə qoyublar"

**Bakı şəhər sakini, 75 yaşlı Tofiq Zərqulu oğlu Xəlilov yenidən redaksiyamıza gələrək şikayətlənib. Onun sözlərinə görə, ötən il bağlanan "Bank Standart"ın əməkdaşının dələduzluğu ucbatından evsiz qalıb. O, fırıldaqla üzləşməsində 44 il evli qaldığı arvadı Lətifə Xəlilovanın da iştirakçılığı olduğundanın bu yaşında ondan boşanıb. Şikayətçi başına gələnləri bu cür nəql edib:**

"Dövlət Əmlak Komitəsində işləyərkən 1983-cü ildə Bakı şəhəri, Nizami rayonu Q.Qarayev prospektində yerləşən 39-cu evdə 3 otaqlı mənzillə təmin olunmuşam. 2005-ci ildə həyat yoldaşım Lətifə Xəlilova həyət evinə köçmək istədiyini dedi. Daim bina evində yaşamaqdan narazılıq etdiyinə görə evi satıb həyət evi tikməyə razılıq verdim. Ona mülkün satılması üçün etibarnamə vermək məcburiyyətində qaldım. Nəhayət, onun istəyi ilə Xətai rayonu, 2-ci Zeytun sovxozu, Naximov küçəsi, döngə 2, ev 110 "d" ərazisində yerləşən yarım tikiliyə köçməli olduq. Tikiliyə köçdüyümüz andan təmir-tikinti işləri aparmışam. Ev sulu ərazidə olduğundan ora torpaq daşıtdırdım, yol çəkdirdim. Bütün bu işlərə ümumilikdə 40 000 manat xərc çəkmişəm. Həmin ərazidə yaşayan qonşular çəkdiyim əziyyətlərin hamısının şahidi olublar".




**Şikayətçinin sözlərinə görə 2006-cı ildə "Bank Standart"ın əməkdaşı dələduzluq yolu ilə həmin evi ələ keçirib:** "Bankın əməkdaşı Emin Abbasov həyat yoldaşım Lətifə Xəlilovanı aldadaraq evin girovu əsasında 32 000 manat alqı-satqı müqaviləsini imzaladıb. Ona 25 000 ABŞ dollar sələmə pul verməklə evi saxtakarcasına ələ keçirib. Əvəzində isə həyat yoldaşım hər ay faiz ödəməklə E.Abbasova cəmi 38.750 ABŞ dolları qaytarıb. Borc müqaviləsi adı altında Emin Abbasov 24 mart 2006-cı il tarixdə alqı-satqı müqaviləsinə imza atdırmaqla onun etibarından sui-istifadə edərək bizə, ər-arvada məxsus evi məndən xəbərsiz ələ keçirib. Olaydan 11 ay sonra Emin Abbasov mənim xəbərim olmadan evə mülkiyyət hüququ əldə edir. Sonra isə o, həyat yoldaşıma heç bir borcu olmadığına dair 20.08.2007-ci il tarixdə etibarnamə vermişdi ki, evi sata bilsin. Həmin etibarnamə 12.08. 2008-ci il tarixdə Emin Abbasovun şəxsi ərizəsinə əsasən ləğv edilib".

**Şikayətçinin sözlərinə görə, evi ələ keçirdikdən sonra Emin Abbasov əməllərini davam etdirərək 01 avqust 2007-ci il tarixdə 2871 nömrəli saxta arayış alıb:** "28 gündən sonra isə o, "Bank Standart" KB-nin Nəsimi rayon filialının işçiləri ilə əlbir olub evi girov qoyub. Bu zaman sənəddə məni ev dələduzu Emin Abbasovun qohumu kimi göstəriblər. Nəticədə qeyri-qanuni olaraq girov qoyulan evə görə bank tərəfindən verilən 51.600 manat kreditdən 9.288 manat (18%) bankda saxlanılıb. E.Abbasovla L.Xəlilova arasındakı "razılaşmaya" görə, Lətifəyə çatan 10.000 manat əvəzinə 15.000 manatı banka ödəməli imiş, ancaq banka 14.648 manat ödənilib. Qalan 32.312 manatı Emin Abbasov özü götürüb və bu səbəbdən də 2008-ci ilin oktyabr ayından banka 35.820 manat ödəyib. Bankın məlumatına görə, qalan kreditin faiz borcu 22.423 manat təşkil edir. 3 ildən sonra isə E.Abbasov gəlib mənə dedi ki, evi alıb".

**Şikayətçi qeyd edib ki, məsələ ilə bağlı hüquq-mühafizə orqanlarına müraciət etsə də heç bir nəticəsi olmayıb:**

"Təəssüflər olsun ki, 2009-cu ildən bu günə kimi bütün instansiya məhkəmələri saxta sənədlər əsasında qərarlar verib. Nəticədə 31 avqust 2010-cu il tarixindən etibarən 2 nəvəmlə evsiz qalmışam. Bizim evimizə isə kirayəçi yerləşdiriblər. Mən isə nəvələrimlə birgə kirayədə yaşayıram. 7 il ərzində 35 000 manatdan çox kirayələrə pul vermişəm. Əmlakımız darmadağın olub. Ümumilikdə mənə 100 000 manatdan çox ziyan dəyib. Bütün instansiya məhkəmələrində isə qanunun tələblərinə riayət edilmədən bizim vətəndaşlıq hüquqlarımız kobud şəkildə pozulub. Bu qədər ədalətsizlik, haqsızlıq olar?! 75 yaşımda nəvələrimlə birgə evsiz qalmaq çox ağırdır. Üstəlik, səhhətimdə də ciddi problemlər yaranıb".

**Şikayətçinin sözlərinə görə onun etibarından sui-istifadə etdiyi üçün 44 il evli olduğu həyat yoldaşından da boşanıb:** "Evsiz qaldığım üçün Lətifə Xəlilova ilə 1973-cü ildə aramızda bağlanan nikahın ləğvinə dair məhkəməyə müraciət etdim və bu ilin oktyabrında boşandım".

**Şikayətçi aidiyyəti orqanlardan köməklik istəyib:**

"Xahiş edirəm, İcra Haqqında Qanunun 20.1.2-ci maddəsinin tələblərinə əsasən barışıq yolu ilə saziş təsdiq edilməsinə və mənim 22 423,82 manat olan faiz borcumun banka ödənilməsini öhdəmə götürməyimi nəzərə alaraq evin mənə qaytarılmasına dair qətnamə qəbul edilməsinə köməklik göstərsinlər".

Məsələ ilə bağlı qarşı tərəfin də rəyini dərc etməyə hazırıq.

Qeyd edək ki, "Bank Standart" ötən ilin sentyabrında bağlanıb. Belə ki, 30 sentyabr 2016-cı il tarixli qərara əsasən bankın lisenziyası ləğv olunub. Bankın keçmiş rəhbəri Kriman Səlim Eldaroviç isə bu ilin iyul ayından beynəlxalq axtarışa verilib.

❑ **Xalidə GƏRAY**

# Avropa Məhkəməsindən absurd qərar: laçınlı köçkünlərə görə işğalçı cəmi 5 min avro cərimələndi

## 2005-ci ilin aprel ayındakı şikayətə görə yekun qərar açıqlandı

**Laçın rayonundan olan məcburi köçkünlər - Elxan və Adışirin Çıraqovlar, Fəxrəddin Paşayev, Akif Həsənov, Ramiz və Qaraca Cəbrayılovların Ermənistan Respublikası tərəfindən işğal edilmiş Laçın rayonuna qayıtmaq və öz mülkiyyətindən istifadə etmək, öz evlərində yaşamaq imkanından məhrum olunmaları barədə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə etdikləri şikayətləri üzrə məhkəmənin Böyük Palatasının yeni qərarı elan olunub.**



Avropa Məhkəməsinin mətbuat xidmətindən verilən məlumata görə, qərara əsasən Ermənistan hökuməti 3 ay ərzində şikayətçi olan məcburi köçkünlərin hər birinə maddi və mənəvi ziyana görə 5 min avro təzminat ödəməlidir.

Bundan başqa, Ermənistan şikayət üzrə vəkil xərcləri kimi 28 min 642 funt sterlinq ödəməlidir.

Qeyd edək ki, 2005-ci ilin aprel ayında Laçın rayonundan olan məcburi köçkünlər - Elxan və Adışirin Çıraqovlar, Fəxrəddin Paşayev, Akif Həsənov, Ramiz və Qaraca Cəbrayılovlar Avropa Məhkəməsinə ərizə ilə müraciət edərək Ermənistan Respublikası tərəfindən işğal edilmiş Laçın rayonuna qayıtmaq və öz mülkiyyətindən istifadə etmək, öz evlərində yaşamaq imkanından məhrum olunmaları barədə şikayət ediblər.

Azərbaycan Respublikası İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanı təsdiq etdiyi və Avropa Məhkəməsinin yurisdiksiyasına daxil olduğu gündən, yeni göstərilən ərizə ilə bağlı icraat başlananadək həmin məhkəmədə məcburi köçkünlərin və qaçqınların hüquqlarının müdafiəsi məqsədilə Azərbaycan hökuməti zəruri tədbirlər görməyə başlayıb. Ermənistanın işğalçı siyasətini, Dağlıq Qarabağın cinayətkar rejiminə hərbi, iqtisadi, siyasi, inzibati və digər dəstəyi barədə kifayət qədər sübutlar toplanıb.

2015-ci ilin iyunun 16-da Avropa İnsan Haqları Məhkəməsinin Böyük Palatası azərbaycanlı məcburi köçkünlərin şikayəti üzrə qərarını açıqlayıb. Qərarda qeyd olunub ki, öz əmlaklarına sahib çıxmaq hüququndan məhrum olunan məcburi köçkünlərin hüquqları pozulub.

Lakin maddi təzminatla bağlı hissə sonraya saxlanılmışdı.

**Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!**

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə, onda Dr. Vaiz Səmədov sizə kömək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez,
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması (8-10 yaşından sonra).

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.



# Dəm qazı 4 can aldı: 3-ü azyaşlıdır...

**Hacıqabulda dəm qazı ailə faciəsinə səbəb olub. APA-nın məlumatına görə, 33 yaşlı Ləman Əliyeva yaşadığı evin hamamında 3 yaşlı qızı və 2 yaşlı oğlu ilə birgə dəm qazından boğularaq ölüblər. Bakının Sabunçu rayonunda isə dəm qazı 13 yaşlı qızın ölümünə səbəb olub. APA-nın məlumatına görə, bədbəxt hadisə Maştağa qəsəbəsində baş verib.**

Uzun müddət zənglərə cavab verməyən 2004-cü il təvəllüdlü qəsəbə sakini Hüseynova Gülsarə Oqtay qızı huşsuz vəziyyətdə yaxınları tərəfindən hamam otağında aşkarlanıb və bu barədə təcili tibbi yardım xidmətinə məlumat verilib. Ancaq ilkin baxış zamanı onun dünyasını dəyişdiyi məlum olub. Məlumata görə, 13 yaşlı qız həmin vaxt evdə tək olub. Onun ailə üzvləri isə ölkədə deyilmiş.

YENİ MÜSAVAT
N 261 (6875) 13 dekabr 2017

**Hazırda "Azərbaycan Hava Yolları" (AZAL) Qapalı Səhmdar Cəmiyyətinin (QSC) "qara siyahı"sına 123 nəfər daxildir. AZAL-dan bildirilib ki, sərnişinlər aviasiya təhlükəsizliyinin müəyyən olunmuş normaları, qaydaları və tələblərini pozduğu halda məsuliyyət daşıyır. Bundan başqa, hava gəmisinin göyərtəsində sərnişinin davranışı digər sərnişinlər, əşyalar, hava gəmisi və ya onun ekipajı üçün təhlükə törətməməlidir.**

# Göydə xuliqanlıq edənlər - aviaşirkətlərin "qara siyahı"sı

## Bəzi ölkələrdə pul cəzası mütləqdir, bəzilərində həbs cəzası...

Uçuş zamanı hava gəmisində sərnişinlərə siqaret çəkmək, göyərtədə sərxoş vəziyyətdə olmaq, təyyarənin qalxması və enişi zamanı elektron vasitələrdən istifadə etmək qadağandır. Telefon cihazından yalnız uçuş rejimini aktivləşdirdikdə istifadə etmək mümkündür. Sərnişin bu qayda pozuntularına yol verdikdə ona qarşı akt tərtib olunur və o, aviaşirkətin "Arzuolunmaz sərnişinlər siyahısı"na daxil edilir.

"Yeni Müsavat" bu maraqlı statistika əsasında aviaşirkətlərin "qara siyahı"sı haqda maraqlı məlumatlar əldə edib. Məlum olub ki, dünyadakı bəzi aviaşirkətlər qeyri-qanuni hərəkətlər edən sərnişinləri "qara siyahı"ya alır. Bu insanlar bir daha eyni şirkətlə səyahət edə bilmir. Araşdırmalara görə, əyləncə sistemləri ilə təchiz olunmuş komfortlu bir uçuş imkanı təqdim edən son texnologiya məhsulu olan təyyarələrlə səyahət etmək sərnişinləri xoşbəxt və rahat edir. Ancaq təyyarədə sərnişinlərə təqdim olunan yeməklərin ləzzəti, əyləncə sistemlərinin çeşidliliyi və ya keyfiyyətli xidmət bir çox hallarda aeroportda yaşadığımız hansısa stresli hadisəni unutmağa imkan vermir. Məsələn, yalançı bomba anonsu verənlər, "üstümdə silah var, təyyarəni qaçıracağam" deyə zarafat etdiyini düşünənlər, spirtli içkini həddən artıq içib, sərnişinlərə və təyyarədəki hər kəsə problem yaradanlar, təyyarənin təhlükəsizliyinə zərbə vuran hərəkətlər edənlər hər kəsin əhvalını korlayır.

### "Qara siyahı"ya düşənlər uça bilmir

Hava yolu şirkətləri uçuş təhlükəsizliyini təhlükəyə salan sərnişinlərin ucbatından hər il milyonlarla dollar maddi itkiyə məruz qalarkən, böyük prestij itkisi də yaşayır. Dünya miqyasında bəzi hava yolu şirkətləri "qeyri-qanuni" sərnişinlərə çox ağır sanksiyalar tətbiq edib, onları "qara siyahı"ya salır. Məsələn, Türkiyədə Pegasus Havayollarının "qara siyahı"sına düşən sərnişin barədə Sivil Havaçlıq Müdirliyinə məlumat verilir. Siyahıda yer alan sərnişin digər satış kanallarından bilet alsalar da, şirkətin sistemində dərhal aşkara çıxır və uçuşdan məhrum edilir. Şirkətin çağırış mərkəzi adı qara siyahıda olan sərnişinlərə öncədən zəng edərək, uçuşlarının ləğv edildiyini və bilet pulunun geri veriləcəyini bildirir.

"Türk Hava Yolları" başda olmaq üzrə Atlasglobal, Onur və SunExpress kimi hava yolları ilə bu məsələdə ciddi bir iş həyata keçirir. Yetkililər uçuş təhlükəsizliyinə zərbə vuran sərnişinlərin bir daha təyyarəyə alınmaması məqsədilə qısa müddət sonra "qara siyahı" sisteminə başlayacaqlarını deyirlər.

### 20 il həbs cəzası alan belə var

Daha çox aşırı miqdarda spirtli içkidən istifadə edən və bu səbəbdən aqressiv hərəkətlər nümayiş etdirən, ya da təbliğat məqsədli yersiz çıxışlar edən sərnişinlərlə bağlı yeni çıxış yolları axtarılır. Qeyri-qanuni hərəkətlər edən sərnişinlərlə bağlı "British", "KLM", "Aerosvit" kimi aviaşirkətlər qara siyahı sistemini tətbiq edirlər. Zaman itkisi ilə yanaşı, maddi itkiyə də səbəb olan bu sayaq sərnişinlərə qarşı bəzi ölkələr 10 min dollar məbləğində pul cəzası və ya 20 il həbs cəzası kimi ağır cəzalar da tətbiq edir.

"Uçuş təhlükəsizliyi yerdə başlanır". Bu da vacib qaydalardan biridir. Bu cür sərnişinlər təyyarəyə minmədən öncə müəyyənləşdrilməli və əsla təyyarəyə minmələrinə imkan verilməməlidir. Çünki təyyarədə özünü pis aparan, başqalarına problem yaradan sərnişinlə bağlı dərhal polisə də şikayət etmək mümkün deyil. Bu kimi vəziyyətlərdə isə problemli sərnişin ünsiyyət qurularaq sakitləşdirilməyə çalışılır. Sərnişin problem çıxarmağa davam edirsə və artıq edəcək heç bir şey qalmayıbsa, bəzi şirkətlər plastik qandal, bəziləri isə elektrikli şok tapançasından istifadə edərək sərnişini təsirsiz hala gətirir. 2001-ci ildəki 11 sentyabr terrorundan sonra Amerikada aviaşitkərlərin pilotlarına həqiqi tapança belə verilib.

### Hansı sərnişinlər "qara siyahı"ya salınır?

İngilis Havayolları "British Airways"də bir ildə sərnişinlər tərəfindən 260 neqativ hadisə yaşanıb. Amma problemli sərnişin məsələsində Amerika hava yolları şirkətləri rekorda imza atıb. Keçən il mindən artıq hadisə meydana gəlib. Bu hadisələrdən 60 faizi polisə müraciətlə nəticələnib. Özünü yaxşı aparmayan sərnişinlərin 50 faizdən artığı polisə ilk ifadələrindən sonra həbs olunub.

Bəs bu hadisələr niyə və hansı səbəbdən yaşanır? Hadisələr arasındakı ağırlığı təyyarədəki qadağaya baxmayaraq, siqaret çəkən və həddən artıq spirtli içki içənlər təşkil edib. Bu sərnişinlərdən böyük qisminin həyatları boyunca aşırı miqdarda içki içdikləri, bir qisminin isə uçuş qorxusuna görə hava limanı barlarında aşırı miqdarda içki aldıqları müəyyənləşib.

Aşırı içki içən sərnişinlər kabinədə canlı bomba halına gəlir. Amma bu, yeganə problem deyil. Yaşanan neqativ hallar arasında ağlayan bir uşaqdan şikayət edib bağıran, qalmaqal yaradan sərnişinlər böyük üstünlük təşkil edir. Birlikdə səyahət etdiyi pişik və itini qutusundan çıxarıb, kabinədə gəzməsinə göz yuman sərnişinlər, digərlərinin etirazına səbəb olur.

Bir futbol matçı izləməyə gedən toplu futbol seyrçiləri kabinədə ən təhlükəli sərnişin sinfində yer alır. Oturduğu yeri dəyişdirmək istəyən, ya da "ekonomi" sinif bileti ilə business qismindəki boş yerə "sızmaq" istəyən sərnişinlər stüardessalarla tez-tez dava edirlər. Yeməkdən və ya kabinəyə keçirməyə çalışdıqları böyük əl baqajının əngəllənməsindən şikayətlənən sərnişinlər hər zaman ciddi problemlər yaradırlar. Təbii ki, uçuş qorxusu da önəmlidir. Gizli qorxunun hər hansı bir səbəblə böyüməsi insanın normal həyatdakı reaksiyalarının bir neçə qat artığının nümayiş olunmasına səbəb olur.

### Siqaret qadağası dəli edir

Təyyarə kabinəsində çıxan qalmaqalların birinci səbəbi olaraq içki görünsə də, əsas problemi siqaret yaradır. Dünyada bir çox ölkədə daxili uçuşlarda siqaret qadağası var. Xarici uçuşlarda da siqaret qadağası mövcuddur. 10-12 saat heç eniş edilmədən, fasiləsiz uçuşlarda siqaret asılılarının böyük problem çıxardığı müşahidə olunur. Ayaqyolunda gizlin şəkildə siqaret çəkməyə çalışanlara tez-tez rast gəlinir. Yanıq siqaretlərini tualetlərdə kağız atıq bölmələrinə atıb, yanğın çıxaranlar belə var. Təyyarədə oturduğu yerdə kabinə məmurunun gözünün içinə baxa-baxa siqaret yandıran sərnişin ilk müdaxilə nəticəsində aqressivləşir, ətrafa həqarətlər yağdırır. Ya da sakit şəkildə oturaraq, ona müdaxilə ediləcək vaxta qədər rahat-rahat siqaretini çəkir. Siqaret çəkməmək üçün aşırı dərəcədə içki içən sərnişinlər də çoxluq təşkil edir.

Maraqlıdır, hansı hava yolu şirkəti problemli sərnişinlərə qarşı necə davranır? "Air France" sərnişinlərin içkili halda təyyarəyə minməsinin qarşısını almaq üçün nəzarəti artırır və kabinə heyəti də psixoloji təhsil alır.

"American Airlines", "Delta", "Cathay Pacific" şirkətləri isə daha çox polislə işləməyə üstünlük verirlər. Onlar problemli sərnişini qandalla oturacağa bağlayırlar. Əsasən İngiltərə və Amerikanın hava yolu şirkətləri "qara siyahı"ya üstünlük verirlər. Onlar çox problem çıxarmış sərnişinlərə bilet satmırlar.

"Ticarətə sığmaz" və ya "insan haqlarına qarşıdır" deyə "qara siyahı" hazırlamaqdan imtina edən fransızlar isə "Air France" şirkətinin adı çıxmasın deyə kabində yaşanan rəzillikləri ört-basdır edirdilər. Amma bu neqativ halların sayı artdıqca şirkət yeni üsul tapdı - problem yaradan sərnişinləri eniş zamanı polisə təhvil verir və barələrində şikayət verirlər.

Bir çox hava yolu şirkəti "müştəri daim haqlıdır" anlayışından vaz keçir. Problem yaradan sərnişinlər üçün pilota geniş səlahiyyət verilir. Onların uçuşun sonuna qədər nəzarət altında tutulmasını təmin etmək yerinə, dərhal məcburi enişlə polisə təhvil verirlər.

Bəzi hava yolu şirkətləri isə uzun uçuşlarda təyyarədə bir təhlükəsizlik əməkdaşının olmasını təmin edir. Neqativ davranan sərnişinə professional bir polis müdaxilə edir, nəticəyə isə pilotla birgə qərar verirlər.

### Təyyarədəki davaların səbəbləri

**"Qara siyahı"ya düşmədən öncə baş verən təyyarə davalarının təsnifatı:**

**1.38 faiz siqaret çəkmə davası:** aşırı siqaret asılıları xüsusən uzun uçuşlarda siqaret çəkirlər. Stüardessalar bunu əngəllədiyi zaman dava-dalaş yaranır.

**2. 20 faiz spirtli içki davası:** bəzi sərnişinlər təyyarəyə minmədən öncə içməyə başlayır. Təyyarəyə minəndən dərhal sonra da içməyə davam edir və hansısa bir səbəblə dava çıxarır.

**3. 15 faiz uşaq və ya ev heyvanları ucbatından yaşanan davalar:** Ağlayan uşağın səsinə dözə bilməyənlər bir müddət sonra insident yaradırlar. Kabində sahibinin sərbəst qoyduğu ev heyvanının gəzməsi də mütləq davaya səbəb olur. Fanatik futbol azarkeşləri də kabin davalarının "vazkeçilməz"ləridir.

**4. 12 faiz yerdəyişdirməyə davası:** Çox adam oturacağını və ya yanındakı, arxasındakı, qabağındakı sərnişini bəyənmədiyi üçün dava çıxarır. Onlar dərhal stüardessanı çağıraraq yerlərinin dəyişdirilməsini istəyirlər. Təyyarə dolu olduğu halda, bu, mümkün olmur və bu, bir çox hallarda sərnişin-stüardessa münaqişəsinə səbəb olur.

**5. 8 faiz yemək şikayəti:** təyyarədə stüardessadan, yeməklərdən şikayət edən və bu səbəbdən dava çıxaran sərnişinlərin sayı da get-gedə artır. Bundan başqa, standartlardan böyük əl çantalarını da kabinə aparmaq istəyən sərnişinlər insidentə səbəb olur.

**6. 7 faiz isə digər səbəblərdən dava çıxaranlardır. Bir çox hallarda adi səbəblərlə belə dava çıxaran sərnişinlər olur.**

Onları isə bütün hallarda "qara siyahı" gözləyir. Yuxarıda da yazdığımız kimi, bir çox ölkələrdə bəzi şirkətlərin arzuedilməz sərnişin barədə bütün şirkətləri təlimatlandırmaq hüququ var. Belə olan halda sərnişin ölkədəki heç bir hava yolu şirkətinin xidmətindən istifadə edə bilmir. Onun yenidən şirkətə müraciət etməsi, bir çox hallarda isə məhkəmə yolu ilə həmin siyahıdan çıxması mümkündür. Əks halda əlac qalır taksiyə sürət qatarına, gəmi səfərinə...Amma onların heç biri təyyarənin sürəti ilə müqayisə oluna bilməz.











❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 261 (6875) 13 dekabr 2017



# Televizora çox baxanlar alzaymer ola bilərlər

ABŞ-da aparılan araşdırmalara görə, televizor izləmək beyinə mənfi təsir edir və alzaymer riskini artırır. Araşdırmada iştirak edən alimlər bildirirlər ki, hər gün 4 saatdan çox televizora baxan insanların alzaymerə yaxalanmaq riski çox yüksəkdir. Araşdırmada mindən çox insan iştirak edib. Onların gündəlik həyatları düz 25 il boyunca alimlər tərəfindən müşahidə edilib. Nəticədə məlum olub ki, televizor hər bir şəxsin beyin hüceyrələrinə pis təsir etsə də, uşaq və gənclər üçün daha çox təhlükə ehtiva edir. Araşdırmanı aparan elm adamları, sadəcə, televizor izləyən insanların deyil, elektriklə işləyən əşyalardan asılı olan hər kəsin təhlükə altında olduğunu vurğulayıblar. Alimlər bu təhlükənin qarşısını almaq üçün daha az televizor izləməyi, kompüter qarşısında çox oturmamağı, idmanla məşğul olmağı və krossvord həll etməyi məsləhət görürlər.

# İtləri üçün 3 min dollarlıq Yeni il hədiyyəsi aldı



Böyük Britaniya sakini Stefani Mariam öz itlərinin Yeni il hədiyyəsinə təxminən 3 min dollara yaxın pul xərcləyib. Bu barədə lenta.ru saytı "The Daily Mirrror"a istinadən xəbər verir. Harvi Mun, Konni adlı itlərinə kristal "Svarovski", bər-bəzəkli yataq, oyuncaq və aksesuarlar alınıb. Mariam bildirib ki, itləri Yeni il bayramını çox sevir: "Biz öz itlərimizə ancaq onların sevdiklərini hədiyyə edirik. Sevgi, nəvaziş, yemək və təbii ki, bir neçə stilli əşya".

Sahibə bildirib ki, o, özünə çox az pul xərcləyir. Bunun əvəzində isə itlərini sevindirməyə üstünlük verir. Xəbərdə həmçinin qeyd olunub ki, bu il Stefani öz itləri üçün keçirdiyi məclisə 16 min dollar pul xərcləyib. 21 yaşlı qız valideynləri ilə birgə yaşayır və sonuncular da onun bu xobbisinə maddi-mənəvi dəstək verirlər. Stefani özü isə rəqs üzrə instruktordur.

# 71 dəfə plastik əməliyyat keçirib, 1 milyon xərcladi

**İngilis model gənc yaşda ən çox plastik əməliyyat keçirən modellər siyahısına düşə bilər. Buna səbəb isə 34 yaşlı keçmiş modelin artıq sayını belə unutmağa başladığı cərrahi müdaxilələrdir. Alisiya Douvall adlı qadın bu vaxta qədər nə az-nə çox - düz 71 dəfə həkimin bıçağı altına yatıb. Anesteziya olmadan 260 dəfə botoks və ya bənzər prosedurdan keçib. Bütün bu əməliyyatlara isə o, 1 milyon funt sterlinq xərcləyib.**

Douval ilk əməliyyatını 17 yaşında olub. Əməliyyatlar zəncirinə sinəsini slikonla böyütməklə başlayan qadın sonradan 16 dəfə sinə, 7 dəfə burun əməliyyatı olub.

Onun sözlərinə görə, bu qədər əməliyyat keçirməsində məqsəd özünü "Barbi" gəlinciyinə bənzətmək olub. Həkimlər isə onun bu istəyinə heç vaxt qarşı çıxmayıblar. "Onlar mənim pulumu istəyirdilər. Heç biri bu qədər bəsdir, dur demədi mənə".

İndi isə bu qədər əməliyyatdan sonra keçmiş model nəinki gözəlləşib, hətta özünü çirkin hesab edir. İki qız anası olan Douvall hələlik əməliyyat olmayacağını deyir.



# Saç boyası vuranlar xərçəngə yoluxur

Araşdırmalar nəticəsində məlum olub ki, müxtəlif ölkələrdə yaşayan qadınların çox hissəsinin istifadə etdiyi saç boyalarının tərkibində onkoloji xəstəliklərin inkişafı üçün provokator rolunu oynayan maddələr var. Bir çox boyaların tərkibində olan ikinci dərəcəli aminlər kimi xüsusi kimyəvi maddələr, o səbəbdən təhlükəli sayılır və onlar havada olan müxtəlif birləşmələrlə ( misal olaraq, tabak tüstüsü) reaksiyaya girdikdə, ən güclü kanserogen birləşmələr ifraz olunur. Ən təhlükəlisi odur ki, ikinci dərəcəli aminlər, baş dərisinə uzunmüddətli (aylar və hətta illərlə) çökə bilirlər. Bununla məlum olur ki, boyanı nə zaman istifadə etməyinizdən və hansı boya istehsalçısını seçməyinizdən asılı olmayaraq özünüzü böyük təhlükəyə atmış olursunuz. 2009 -cu ildə alimlər və həkimlər xəbərdarlıq etmişdilər ki, saçların tez-tez boyanması ( ildə 9 dəfədən artıq) leykemiya təhlükəsini 60 % artırır. 2010-cu ildə isə Avropada daimi istifadəsi zamanı sidik kisəsi xərçənginə gətirən bir çox boyaların satışı qadağan edilib.




**QOÇ** - Kifayət qədər uğurlu gündür. Planlarınızın əksəriyyəti müsbət müstəviyə yaxınlaşacaq. İşlə bağlı əsaslı dönüşə nail olmaq istəyirsinizsə, nüfuzlu şəxslərlə əlaqələri dərinləşdirin.

**BUĞA** - Ulduzların düzümü gün ərzində ovqatınızın xoş olacağını bildirir. Əgər vaxt tapıb müqəddəs ziyarətgahlara baş çəksəniz, daxili sıxıntılarınız da səngiyəcək. Sevgiyə laqeyd qalmayın.

**ƏKİZLƏR** - İştirakçısı olduğunuz hadisələri özünüzdən yaxşı analiz edən yoxdur. Deməli, gün ərzində külli-ixtiyar öz əlinizdə olacaq. Ulduzlar əksər sahələrdə müdafiənizdə duracaq.

**XƏRÇƏNG** - Təxminən saat 15-ə qədər gərginliklə baş-başa qalacaqsınız. Ola bilsin ki, ünsiyyətdə olduğunuz bəzi şəxslərlə mübahisələrə də cəlb olunasınız. Bu səbəbdən "qatığa ağ deməyə" çalışın.

**ŞİR** - Yaxşı olar ki, bütün vaxtınızı adi işlərin həllinə yönəldəsiniz. Hər hansı risk və ya yeni iş uğursuzluqla nəticələnəcək. Pul sövdələşmələrindən isə ümumiyyətlə kənar durun.

**QIZ** - İşgüzar sövdələşmələr üçün ideal vaxtdır. Çalışın ki, müsahiblərinizin ədalətli rəyi ilə hesablaşasınız. Yalnız bu halda perspektivli gələcək barədə düşünməyə dəyər.

**TƏRƏZİ** - Müəyyən məsələlərdə özünüzü aldatmayın. Sözlə deyil, əməllərinizlə özünüzə qarşı rəğbət oyadın. Göy qübbəsi bu gün qarşınıza yeni və xeyirxah adamlar çıxaracağını bildirir.

**ƏQRƏB** - Lovğalıq, özündənrazılıq və hər şeyə qərəzli yanaşmaq sizə başucalığı gətirən deyil. Odur ki, ətrafda olanlarla mülayim və səmimi davranmağa çalışın. Axşama yaxın sevinəcəksiniz.

**OXATAN** - Ayın ən uğurlu günlərindən birini yaşayacaqsınız. İstər fəaliyyətdə, istər qarşılıqlı münasibətlərdə, istərsə də məhəbbət müstəvisində işləriniz qənaətbəxş olacaq. Özünüzə inanın.

**OĞLAQ** - Hiss olunur ki, insanlar yavaş-yavaş sizi başa düşməyə meyl edir. Deməli, daxilinizi narahat edən ideyaları açıqlamaq olar. Bu gün yalnız Tanrıya xoş gedən hərəkətlər edin.

**SUTÖKƏN** - Əsas devizimiz müqəddəs Avestada göstərilən "Xeyirxah Fikir, Xeyirxah Söz, Xeyirxah Əməl" olmalıdır. Gün ərzində Ali Həqiqətə çatmaq üçün məhz bu üç prinsipə söykənməlisiniz.

**BALIQLAR** - Ulduzların düzümü bu təqvimdə mübahisəli situasiyalara cəlb olunacağınıza işarə edir. Özünüzü qoruyun, çılğınlığınızı cilovlayın. Saat 16-dan sonranı isə bütünlüklə sevgiyə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Evlənəcəyi adamla uşaqlıqda tanımadan şəkil çəkdiribmiş



Böyük Britaniya sakini gələcək əri ilə tanışlıqlarından 10 il əvvəl şəkil çəkdirdiklərini öyrənib. Bu barədə "The Independent" xəbər verib. Verona Koliçi Mirand Buzaku ilə 2016-cı ilin yayında tanış olub. Nişanlanandan sonra o, sevdiyi adama uşaqlıq şəkillərini göstərib. Qara dəniz sahillərində çəkilən fotolardan birində arxa planda görünən oğlanın da eyni şort və köynəkdə olduğunu görən nişanlısı öncə bunun təsadüf olduğunu düşünüb. Amma qohumları təsdiqləyiblər ki, onlar eyni ildə, eyni istirahət mərkəzində dincəliblər, bir-birilərindən bir neçə metr aralıda gəzsələr də, bu haqda bilməyiblər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.